Qanlı Yanvardan 29 il ötür!

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

№02 (1050) 17-23 yanvar 2019-cu il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihə: "SOCAR karbamid" zavodu

Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodu istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və zavodun direktoru Xəyal Cəfərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat vermişlər.

Qeyd edək ki, karbamid zavodunun layihəsi Prezident İlham Əliyevin 2008-ci ilin avqustunda imzaladığı Sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na və 2014-cü ilin dekabrında imzaladığı Sərəncamla təsdiq edilmiş "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən icra edilib. Təməli 2011-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi ilə əlaqədar elan olunan beynəlxalq açıq tenderin nəticələrinə əsasən 2012-ci ildə Koreya Respublikasının "Samsung Engineering" şirkəti mühəndislik, satınalma və tikinti üzrə podratçı seçilib. Layihənin ammonyak və karbamid istehsalı üzrə texnoloji avadanlığı müvafiq olaraq Danimarka və Hollandiya şirkətləri tərəfindən təmin edilib. Həmçinin layihənin idarə edilməsi və müstəqil təftiş xidmətlərinin həyata keçirilməsi məqsədilə 2015-ci ildə Finlandiya şirkəti ilə müvafiq müqavilə imzalanıb. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə, 3600 nəfərdən artıq işçi cəlb olunub. İnşaat zamanı təhlükəsizlik tələblərinə maksimum dərəcədə riayət edilib, iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

Məlumat verilmişdir ki, "SOCAR karbamid" zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

İndiyədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, yeni zavod həm daxili bazarın tələbatını tam ödəyəcək, həm də istehsal etdiyi məhsulun təxminən 70 faizini ixrac edəcək. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən illik 90 milyon dollara qədər valyuta vəsaitləri ölkədə qalacaq, eyni zamanda, zavod respublikamız üçün əlavə gəlir mənbəyinə çevriləcək.

"SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Zavodda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb. Prezident İlham Əliyev zavodu işə

salmışdır. Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşmüşdür.

Prezident İlham Əliyev zavodda istehsal olunacaq məhsullara da baxmışdır. Zavodda gün ərzində 2000 ton karbamid istehsal ediləcək.

İlham Əliyev: Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləmişdir. O, demişdir:

- 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir.

Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var. Bu il biz regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Demək olar ki, proqramın əsas hissəsi hazırdır.

Keçən il mən Azərbaycanın bölgələrinə 24 səfər etmişəm. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanmışdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır.

Həmçinin hesab edirəm ki, keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Əlbəttə, hesab edirəm ki, biz, ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Bildiyiniz kimi, Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanıb. Bizim İslam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. Təsadüfi deyil ki, keçən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir və Naxçıvan şəhəri bu şərəfli adı çox böyük uğurla daşımışdır.

Bildiyiniz kimi, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır.

Biz ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirmişik. Bildiyiniz kimi, bu il Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcək. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, bizim uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz bu ifadələr öz əksini tapıbdır. Danışıqların davam etdirilməsi prosesi başlanmışdır, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə bir fikirlər səslənirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə danışıqlar prosesi bərpa edildi.

Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi.

Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olunub. Onların qəhrəmanları qorxaqdır, onların generalları oğrudur. Bax, budur, Ermənistanın indiki vəziyyəti.Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq.Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, biz keçən il, əlbəttə ki, hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər var. Bizim ordumuzun döyüş qabiliyyəti artır və Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik.Bu, çox uğurlu əməliyyat idi.Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır.Yəni, bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək.

Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu məsələ daim diqqət mərkəzindədir.

Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb.İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir.

Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Ümumi daxili məhsul, yəni, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Qeyri-neft sektorunda inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzən-

nəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir.Yəni, bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır.

Biz keçən il valyuta ehtiyatlarımızı artırmışıq. Baxmayaraq ki, xərclərimiz də az olmayıb, eyni zamanda, biz valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artıra bildik. Beləliklə, bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb və bu da çox müsbət haldır. Yəni, indi Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Bu məsələ ilə bağlı indi müvafiq proqram hazırlanıb.

Keçən il 118 min daimi iş yeri yaradılmışdır. İşsizliyin aşağı səviyyədə saxlanması üçün bu, çox əhəmiyyətli məsələdir. İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo – yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Əgər ölkələrə biz nəzər salsaq görərik ki, bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir. Ölkələrin əksəriyyətində idxal ixracı üstələyir. Azərbaycanda isə biz bunun əksini görürük. Özü də biz ölkəyə ixracla bağlı daha çox - 8,6 milyard dollar pul gətirmişik, nəinki xərcləmişik. Əgər biz buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək, onda görərik ki, rəqəm daha da artacaq. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apardığımız siyasət, görürsünüz ki, ilk növbədə, maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və Azərbaycan kosmik dövlət kimi öz mövqelərini daha da möhkəmləndirdi. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, sözün əsl mənasında, tarixi hadisədir.Çünki bu hadisə bundan sonra onilliklər ərzində Azərbaycana böyük xeyir, həm siyasi, həm də iqtisadi və maliyyə mənfəəti gətirəcək. Keçən il Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP layihəsi də işə düşdü və artıq fəaliyyətdədir. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü reallaşdı. Bu, bizim böyük uğurumuzdur, tarixi uğurumuzdur. Ölkəmizi nəqliyyat mərkəzinə çevirmək üçün keçən il çox önəmli hadisə baş vermişdir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı öz işinə başlamışdır.Beləliklə, Azərbaycan tranzit ölkə kimi artıq özünü dünyada təsdiqlədi.

X X X

İclasda maliyyə naziri Samir ŞƏRİFOV, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil BABAYEV və Dövlət Gömrük Komitəsinin sədri Səfər MEHDİYEV çıxış etmişlər.

X X X

Prezident İlham Əliyevin yekun nitqindən:

- Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Xüsusilə vergi və gömrük sahələrində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Bu sahələrdə sağlamlaşdırma prosesi gözəl nəticələr verir. Bizim maliyyə imkanlarımız genişlənir. Görülmüş işlər, yəni, artıq apardığımız islahatlar bu il də özünü böyük dərəcədə göstərəcək.

Burada qeyd olundu ki, gömrük sahəsində aparılan islahatlar nəticəsində biz büdcəmizi böyük dərəcədə artıra bilmişik. Hətta keçən il dürüstləşmə apararaq büdcəmizi artırmışıq ki, əlavə işləri görə bilək. Həm sosial sahəyə, həm də infrastruktur layihələrinin icrası ilə bağlı əlavə vəsait ayrıldı.

Vergi sahəsində də çox dərin islahatlar aparılıb. Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Mən tam əminəm ki, aparılan islahatlar nəticəsində həm bizim gəlirlərimiz artacaq, - artıq artıb, gömrük 1 milyard manat əlavə vəsait toplayıb, - eyni zamanda, biz kölgə iqtisadiyyatına böyük zərbə vurmuş olarıq.Bu, böyük bəladır və biz bu bəla ilə bağlı çox ciddi mübarizə aparırıq. Azərbaycanda kölgə iqtisadiyyatı olmamalıdır.Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır.

Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Biz son illər ərzində infrastrukturun yaradılması ilə çox ciddi məşğul olmuşuq. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə qabaqcıl yerlərdədir, 30-cu yerdədir.Ancaq hələ ki, görüləsi işlər var və bu istiqamətdə işlər aparılacaq. Bu il "Şimal-2" yeni böyük elektrik stansiyasının istifadəyə verilməsi gözlənilir. Bu stansiya 400 meqavat enerji istehsal edəcək. İndi biz özümüzü elektrik enerjisi ilə tam təmin edirik, hətta böyük həcmdə ixrac da edirik. Ancaq biz yeni güclər yaratmalıyıq. Çünki tələbat artır, sənaye artır, əhali artır və ixrac imkanlarımız genişlənir. Bu məqsədlər üçün keçən il vəsait ayrılıb. Ancaq mövcud enerji qurğularımızı təmir edərək, onlara düzgün xidmət göstərərək biz yeni stansiyalar tikmədən enerji istehsalını ən azı 500 meqavat artıra bilərik. Bu, çox böyük rəqəmdir. Gücü 400 meqavat olan "Şimal-2" stansiyasının işə salınması ilə biz bu il 1000 meqavata yaxın yeni generasiya gücünə malik ola bilərik. Bu, əlbəttə ki, ixrac imkanlarımızı böyük dərəcədə artıracaq. Çünki keçən il biz elektrik enerjisinin ixracından 10 milyonlarla dollar pul əldə etmişik, bu vəsait xəzinəyə daxil olubdur.

Keçənilki qəzadan sonra aydın oldu ki, bizim strateji obyektlərimiz bu fövqəladə vəziyyətə hazır deyil və bu, böyük təəssüf hissi yaradır. İndi isə görülən və görüləcək işlər nəticəsində bütün strateji obyektlərdə müasir generator sistemi quraşdırılacaq, bu məqsədlər üçün vəsait ayrıldı. İlk növbədə, metro stansiyalarında generatorlar quraşdırılacaq.

Söz verdiyimiz kimi, keçən il Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb və hesab edirəm ki, bu, ən yüksək göstəricidir. İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir və yaxın gələcəkdə o şəhərlərin də içməli su ilə tam təminatı təşkil ediləcəkdir.

Keçən il 2 min kilometr avtomobil yolu salınmışdır. Bu, rekord göstəricidir. Ümumilikdə isə 2004-cü ildən bu günə qədər 15 min kilometr avtomobil yolu salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Biz inkişaf etmiş bir çox ölkələri də qabaqlayırıq və bu proses davam etdiriləcək. Keçən il 920 kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb. Bu yaşayış məntəqələrində 2,2 milyon insan yaşayır. Yəni, 2,2 milyon insanın yol problemi həll olunub.

Keçən il biz meliorativ tədbirlər görməklə 100 min hektar torpağa su verilməsini təmin etdik. Onlardan 60 min hektara su verilirdi, ancaq çox zəif verilirdi. Yəni, keçən il o torpaqlara suyun verilməsi yaxşılaşdırıldı, 40 min hektara isə heç vaxt su verilmirdi, bu da əkin dövriyyəsinə cəlb edilmiş suvarılan yeni torpaqlar olacaqdır.

Bu il sosial infrastrukturla bağlı işlər görüləcək. Keçən il 5800 ailəyə yeni mənzillər verildi. Onu da qeyd etməliyəm ki, bu mənzillərdən 1000-i "Qobu Park" yaşayış kompleksində özəl şirkət tərəfindən inşa edilmiş və köçkünlərə təmənnasız verilmişdir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı 800 mənzil veriləcək.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim Sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanmışdır. Bu günə qədər siyahıda 10 minə yaxın vərəsə var. Onların hamısına 11 min manat veriləcəkdir.

Keçən il 140-dan çox məktəb tikilib. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi hesab edirəm ki, maksimum iki il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq.

Bu il mərkəzi rayon xəstəxanalarının tikintisi davam etdiriləcək. Bu il 10-a yaxın mərkəzi rayon xəstəxanasının açılışı gözlənilir. Keçən il də bir çox yerlərdə xəstəxanalar açılmışdır. Bu il üç Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Beş "ASAN xidmət" mərkəzi açılmalıdır.

Onu da bildirməliyəm ki, keçən il 5 milyondan çox insan pulsuz olaraq tibbi müayinədən keçmişdir.

Özünüməşğulluq proqramı geniş vüsət alır.

Bu il ən azı 7000 ailə bu proqramdan faydalanacaq. Bu gün onların arasında ünvanlı sosial yardım alanlar da var. Keçən il 400-ə yaxın hərbçiyə mənzil verilmişdir. Artıq hərbi xidməti uğurla, qüsursuz başa vuran hərbçilərə bu il də mənzillərin verilməsi nəzərdə tutulur.

Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat. Biz sərgilərdə, xüsusilə ərzaq məhsullarının təbliği ilə bağlı sərgilərdə dövlət hesabına iştirak edirik.Sahibkarları oraya cəlb edirik ki, onlar öz məhsullarını xaricə daha rahat sata bilsinlər. Ticarət evləri yaradılır. Artıq Belarusda, Çində, Ukraynada, Latviyada, Polşada Azərbaycan Ticarət evləri açılıb. Bu da bizim təşəbbüsümüzdür.Onu da bildirməliyəm ki, bizim Ticarət evlərimizə çox böyük maraq var. Bu Ticarət evlərinin açılması nəticəsində həmin ölkələrə bizim ixracımız da artır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Sənaye potensialımızın inkişafı ilə bağlı keçən ilin göstəriciləri çox müsbətdir. Sənayenin qeyri-neft sektorunda istehsal 9,1 faiz artıb. Bu günə qədər bizim sənaye parklarımızda 67 rezident var. Onlardan 40 rezident artıq fəaliyyətdədir. Sənaye parklarında həyata keçirilən layihələrə nəzərdə tutulan sərmayə 5 milyard manatdan çoxdur. Bu layihələr nəticəsində 11 min yeni iş yeri yaradılıb. Bu proses davam etdiriləcək. Bu il də sənaye zonalarının yaradılması nəzərdə tutulur.

İnvestisiya təşviqi mexanizminin işə düşməsi də çox ciddi islahat idi. Bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılıb. İndi baxın, əgər biz bu mexanizmə keçməsəydik, bunu tətbiq etməsəydik, ölkə iqtisadiyyatına 2,8 milyard manat qoyulmayacaqdı.

Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı sürətlə inkişaf etdirməyə başlamışıq və nəticələr də var. 20 xalça fabriki tikilərək istifadəyə verilib. Bu il 11 xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu fabriklər tam gücü ilə fəaliyyətə başlayandan sonra 5 minə yaxın insan, - onların mütləq əksəriyyəti qadınlardır, - işləyəcək. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, bizim tarixi milli sənətimiz yaşayır və yaşayacaqdır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var. Bu, ixracyönümlü məhsuldur.

Qeyd etdiyim kimi, kənd təsərrüfatı sahəsində 4,6 faiz artım yaxşı göstəricidir. Ancaq bu sahədə də çox ciddi islahatlar aparılır. Elektron kənd təsərrüfatı sisteminin tam işə düşməsi gündəlikdə duran vacib məsələlərdən biridir. Subsidiyalarla bağlı təkliflər imkan verəcək ki, bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın. Biz kənd təsərrüfatını stimullaşdırmaq üçün çox böyük işlər görmüşük. Təkcə keçən il 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texnika parkımızı böyük dərəcədə təzələmişik.

Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda və digər sahələrdə. Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri.İndi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi – bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir.Amma biz daha böyük nəticələr gözləyirik.

Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə, ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumiyyətlə isə bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır. İndi 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur. Onların istehsal edəcəyi məhsullar, indi təxmini hesablamalar göstərir ki, təqribən 800 milyon -1 milyard manata yaxın olacaqdır.

Turizm sahəsində gözəl nəticələr var. Qeyd etdiyim kimi, keçən il də 6 faiz artım olub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. Bizdə turizm sənayesi yaradılmalıdır. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir.

Bizim tarixi kəndlərimiz var. Mənim Sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Qusar rayonunda yerləşən "Şahdağ" xizək kurortunda yeni xizək zolaqları yaradılır, ümumiyyətlə, yeni yanaşma tətbiq olunur və əminəm ki, bu gözəl kurort turistləri daha çox cəlb edəcək.

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün bir çox ikitərəfli təmaslar olub, razılaşmalar əldə edilib. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanmışdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir. Türkmənistanla əldə edilmiş razılaşma imkan verəcək ki, digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə Azərbaycan ərazisindən Şərq-Qərb dəhlizi ilə dünya bazarlarına çıxara bilsinlər. Ələt Dəniz Ticarət Limanında xüsusi şərait yaradırıq. Müvafiq orqanlar həm tarif siyasətini, həm də tranzit imkanlarını dövlətlərarası səviyyədə tənzimləyiblər. Keçən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Onu da bildirməliyəm ki, keçən il Bakı və Sumqayıt dəmir yolu vağzalları yenidən quruldu.

İclasın sonunda bildirməliyəm ki, mən keçən il noyabr ayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışam.

Bu il biz İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edəcəyik. Keçən il Bakıda və şairin doğulduğu Şamaxı şəhərində Nəsimi günləri, Nəsimi festivalı keçirilmişdir. Bütün bunları və Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, mən 2019-cu ili "Nəsimi ili" elan edirəm.

Heydər Əliyev Fondundan Qobustan qəsəbəsi sakinlərinə dəyərli töhfə

Heydər Əliyev Fondu səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinə dəyərli töhfələr verir. Fəaliyyəti dövründə Fondun təşəbbüsü ilə müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, Müalicə-Diaqnostika, Reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib. Fondun gələcəyimiz olan uşaqların sağlamlığı üçün atdığı addımlar görülən işlərin tərkib hissəsidir. Fond tərəfindən həyata keçirilən digər tədbirlər, ilk növbədə, vətəndaşlarımızın sağlamlığının qorunması, uşaqların sağlam böyüməsi kimi mühüm və nəcib məqsədə xidmət edir.

Yanvarın 14-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı birləşmiş şəhər xəstəxanasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və 17 saylı birləşmiş şəhər xəstəxanasının baş həkimi, Əməkdar həkim Elmira Rəfailova görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, 60 çarpayılıq dördmərtəbəli birləşmiş şəhər xəstəxanasının ərazisində təcili yardım stansiyası və digər binalar inşa olunub, zəruri infrastruktur yaradılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 1,4 hektardır, tibb ocağının binasının ümumi sahəsi isə 8 min kvadratmetrə yaxındır.

Qeyd edilib ki, Qobustanda xəstəxana 1955-ci ildən fəaliyyətə başlayıb.

Xəstəxana binalarının yararsız vəziyyətdə olması nəzərə alınaraq Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamı ilə Qobustan qəsəbəsindəki 17 nömrəli birləşmiş şəhər xəstəxanasının yenidən qurulması üçün maliyyə vəsaiti ayrılıb. Aparılan inşaat işləri zamanı köhnə xəstəxananın yerləşdiyi binalar tam sökülüb və onların yerində müasir standartlara cavab verən yeni xəstəxana binası inşa edilib.

Xəstəxana binasında ümumi qəbul, funksional diaqnostika, pediatriya, mama-ginekologiya, travmatologiya, cərrahiyyə və doğum şöbələri, rentgen, terapevt, EKQ, otorinolarinqoloq, oftalmoloq, stomatoloq kabinetləri, əczaxana yaradılıb. Tibb müəssisəsində, eyni zamanda, ümumi terapiya, reanimasiya şöbələri, böyüklər və uşaqlar üçün palatalar, laboratoriyalar var. Xəstəxananın hemodializ və fizioterapiya şöbələrində müasir avadanlıq quraşdırılıb, bütün şöbələr və bölmələr arasında birbaşa əlaqələr mövcuddur. Tibbi heyət köhnə xəstəxana binasında gün ərzində 80-90 xəstəyə xidmət göstərə bilirdisə, yeni binada gün ərzində 200-300 xəstəyə tibbi xidmət göstərmək mümkündür.

Sonra dövlətimizin başçısı tibb müəssisəsinin kollektivi ilə görüşüb söhbət etmişdir.

Ziyad Səmədzadə: "Nəticələr inkişaf strategiyasının düzgünlüyünü bir daha təsdiqləyir"

Müsahibimiz Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadədir:

- Ziyad müəllim, yanvarın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi. Bir iqtisadçı-alim və komitə sədri kimi iclasla bağlı nələri qeyd etmək istərdiniz?

-İstər ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə, istərsə də 6 ayın və 9 ayın yekunlarına həsr olunmuş iclaslar artıq bir növ ənənə halını alıb. Yəni, ümummilli lider Heydər Əliyevin dövründən ta bu günə kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 16 illik hakimiyyəti dövrü ərzində də hər il bu tipli iclaslar keçirilir. Hesab edirəm ki, bunlar çox vacib və əhəmiyyətlidir. Ona görə ki bunlar həm bir növ görülmiş işlərin hesabatı, həm də görülən və görüləcək işlərlə bağlı yolun, hədəflərin bir daha müəyyənləşdirilməsi, necə deyərlər, yeni "yol xəritəsi"nin cızılmasıdır. Bu baxımdan, dövlət başçısının sədrliyi ilə keçirilən - bu günlərdə yola saldığımız və xalqımız üçün çox əlamətdar hadisələrlə zəngin olan, ən əsası, "Cümhuriyyət İli" kimi tarixə düşmüş 2018-ci ilin yekunlarına həsr olunmuş iclası, orada səsləndirilən fikirləri, verilən tapşırıq və mesajları ölkəmizin, dövlətimizin, bütövlükdə regionumuzun və dünyamızın inkişafı, düzəni baxımdan çox önəmli və dəyərlidir. Düşünürəm ki, orada səsləndirilən göstəricilər, rəqəmlər heç də adi statistika, quru rəqəmlər deyil, bunların altında böyük işlər, əmək və zəhmət dayanır. Əgər bu işlər həyata keçirilməsəydi, böyük əmək və zəhmət sərf olunmasaydı, ölkəmizin sosial-iqtisadi inkişafı, uğurları, nailiyyətləri də mümkün olmazdı. Eyni zamanda, təbii ki, inkişaf, uğurlar, nailiyyətlər olan yerdə problemlər də olur və olmalıdır. Bu, tək bizdə deyil, dünyanın hər bir yerində belədir. Odur ki, 2018-ci ili sözün tam və əsl mənasında uğur və inkişaf ili kimi dəyərləndirmək olar...

- Bu yerdə bir məsələdən digər məsələyə, əslində isə bir-birilə əlaqəli olan məsələyə keçid edərək, bir daha "Cümhuriyyət İli" ilə bağlı fikirlərinizi bilmək istərdik. Bir əsrə yekun vuruldu, bəs, hədəflərə necə, çatıldımı?

- 2018-ci il "Cümhuriyyət İli" kimi tarixə düşdü. Yüz il öncə böyük kişilərin, Azərbaycan aydınlarının, Cümhuriyyət qurucularının fədakarlığı sayəsində ilk müstəqil Azərbaycan dövlətinin əsası qoyuldu, 28 may 1918-ci il tarixində istiqlaliyyətimiz elan edildi. İstiqlaliyyətimiz də sadəcə quru kağız üzərində qalmadı, istiqlal şairimiz Bəxtiyar Vahabzadə demişkən, quru torpaq üzərində, yoxdan dövlət var edildi. Tezliklə işğal altında olan Bakımız Qafqaz-İslam Ordusunun köməyilə yadelli işğalçılardan azad edildi, 15 sentyabr tarixə Bakının azad olunması günü kimi qızıl hərflərlə həkk olundu, həmin gün "Azərbaycan" qəzeti nəşrə başladı. 7 dekabr tarixində Şərq-müsəlman aləmində ilk parlamentarizmin əsası qoyuldu, Azərbaycan Parlamenti fəaliyyətə başladı, həmçinin 26 iyun tarixində ilk Milli Ordumuzun yaradılmasına başlanıldı, 1919-cu ilin sentyabr ayının 1-də ilk ali təhsil ocağımız - BDU yarandı və s. Ancaq çox təəssüflər olsun ki, daxili və xarici amillər üzündən müstəqilliyimizin ömrü uzun çəkmədi, cəmi 23 ay yaşadı Cümhuriyyətimiz. Ancaq bu dövr, bu mərhələ, ilk Cümhuriyyətimiz tarixdə izini qoydu, imzasını imzalar içində yazdırdı, şərəfli və fəxarətli bir yol keçdi. 71 illik sovetlər hakimiyyəti dönəmində bəzi haqsızlıqlara, ədalətsizliklərə baxmayaraq, Azərbaycan xalqı böyük inkişaf yolu keçdi, xüsusilə də, ümummilli lider Heydər Əliyevin 13 illik hakimiyyəti illərində. Azərbaycan aqrar respublikadan keçmiş İttifaqın ən qabaqcıl respublikalarından birinə çevrildi. Sonra məlum Qarabağ hadisələri ilə üzsət alan milli-azadlıq hərəkatı, həmçinin sovetlər quruluşunun çökməsi nəticəsində Azərbaycan 1991-ci ildə ikinci dəfə müstəqiliyyini əldə etdi və artıq müstəqilliyimizin 28-ci ilini yaşayırıq. Bu illər ərzində görülən işlər, xüsusilə, ikinci istiqlaliyyət illərində həyata keçirilən balanslı, tarazlı, məqsədyönlü siyasət, strategiya müstəqilliyimizin, həm də gələcək inkişafımızın fundamental bazasını təşkil edir.

Bildiyiniz kimi, "Cümhuriyyət İli" çərçivəsində də bir əsrə sığacaq hadisələr yaşandı. 28 may tarixində müstəqilliyimizin 100 illiyi təntənəli şəkildə qeyd olundu, bundan bir gün sonra Cənub Qaz Dəhlizinin açılışı oldu. Uğurlu Cünnüt əməliyyatı keçirildi, 26 iyul tarixində Milli Ordumuzun 100 illiyi Hərbi Paradla qeyd edildi. Həmçinin, iyun ayında "ikinci qan damarı" adlandırlan TANAP-ın açılışı oldu, avqust ayında Xəzərin hüquqi statusunu müəyyənləşdirən Aktau Konvensiyası imzalandı. 15 sentyabrda Bakımızın işğaldan azad edilməsinin 100 illiyi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə və möhtəşəm paradla qeyd edildi. 21 sentyabrda Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə Milli Məclisdə təntənəli şəkildə iclas keçirildi. Bunun ardınca, oktyabr ayında Azərbaycan-Türkiyə qardaşlığının növbəti ifadəsi kimi, Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə "STAR" neft emalı zavodu işə salındı. Həmçinin, il ərzində ölkə rəhbərinin həm regionlara, həm xarici ölkələrə, Böyük Britaniyaya, Fransaya, Rusiyaya, Belarusa, Türkmənistana tarixi səfərləri oldu, o cümlədən Almaniya, İtaliya, Rusiya liderlərinin ölkəmizə tarixi səfərləri baş tutdu. Bu səfərlərdə də ölkələrimiz, xalqlarımız üçün mühüm əhəmiyyət daşıyan çoxsaylı sazişlərə imza atıldı. Həmçinin, regionlara səfərlər zamanı çoxsaylı müəssisələrin açılışları reallaşdırıldı, yeni iş yerləri açıldı. "ASAN"-dan sonra vətəndaşların məmnunluğunu təmin etmək üçün növbəti qurum - "DOST" yaradıldı, ölkədə 11 aprel seçkilərindən sonra yeni hökumət formalaşdırıldı. Yəni, 2018-ci ildəki hadisələri sadalamaqla bitirmək mümkün deyil. Hamısı tarixi, əzəmətli hadisələrdir. Bunlar həm də müstəqilliyimizin bazası və gələcək təminatı olan hadisələrdir. Hamımız bunlarla bir vətəndaş kimi fəxr edirik, qürur hissi keçiririk.

- Yenidən ötən ilin yekunları ilə bağlı iclasa qayıdaraq, fikirlərinizi bir qədər də konkretləşdirməli olsaq, rəqəmlərə istinad etsək, nələri qeyd etməyə dəyər?

- Ən əsası onu vurğulamaq istərdim ki, dünyada 2008-ci ilin payızından başlayan və hələ də davam edən maliyyə-iqtisadi böhranının davam etməsinə, qlobal kataklizmlərin ölkə iqtisadiyyatlarına böyük zərbələr vurmasına, sülhün, təhlükəsizliyin təmin edilməsi əvəzinə dünyadakı supergüclər tərəfindən yeni-yeni münaqişə ocaqlarının yaradılmasına, təhdidlərin artmasına, "Ərəb baharı" adlı qanlı layihə ilə Suriyanın, Yəmənin, Liviyanın vətəndaş müharibəsi, aclıq və səfalət içində inlədilməsinə, İraqda, Əfqanıstanda, digər yerlərdə hələ də qanların axıdılmasına, o cümlədən 31-ci ilini başa vuran və Ermənistan, onun açıq-gizli himayədarlarının dağıdıcılıq əməlləri üzündən Qarabağ münaqişəsinin həllini tapmamasına rəğmən, Azərbaycan bu kataklizmlərdən, təhdidlərdən ötüşməyi bacara bilib. Özü də nəinki bacara bilib, hətta sürətli və dinamik inkişaf xəttini davam etdirib, regionun təhlükəsizlik, sabitlik və inkişaf adası olmaqda davam edib. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Həmçinin, bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Ümumi daxili məhsul (ÜDM), yəni iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olub ki, bunun özü də yaxşı göstəricidir. Əlbəttə, dövlət rəhbərinin də dediyi kimi, "bu,bizim arzularımızı tam əks etdirmir", ancaq, eyni zamanda, dünyada gedən proseslərə baxdıqda normal göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasəti öz gözəl nəticələrini verir. İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri ötən ildə 9,2 faiz artıb. Əhalinin gəlirləri inflyasiyanı üstələyir. 2017-ci ilə nəzər salsaq görərik ki, o zaman inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Ötən il, xərclərimizin heç də az olmamasına baxmayaraq, valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artırmağa nail olmuşuq. Bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Bununla yanaşı, xarici borc 22,8 faizdən 19 faizə düşüb...

- Xarici borcdan, borclanmadan söz düşmüşkən, bu, gələcəkdə ölkəmizi iqtisadi cəhətdən növbəti çətinliklərlə, iqtisadi risklər və təhlükələrlə üz-üzə qoya bilməz ki? Bəzən mediada və müxalif siyasi dairələrdə bununla bağlı narahatlıqlar bildirilir, hətta hökumətə qarşı sərt ittihamlar səsləndirilir...

-Hesab edirəm ki, xarici borcumuzun 22,8 faizdən 19 faizə düşməsi müsbət göstəricidir və növbəti ildə də bu istiqamətdə işlərin görülməsi nəzərdə tutulur ki, onlar da mütləq öz müsbət nəticəsini, effektini verəcək. İkincisi, heç bir dövlət xarici borcdan, borclamandan sığortalanmayıb. Elə ətrafımızdakı ölkələri, post-sovet məkanı ölkələrini və yaxud qardaş Türkiyəni, digərlərini götürək. Onlarda da bu məsələ var və daha kəskin şəkildə. Yəni, indi bizdə bəzilərinin iddia etdiyi kimi, burada hansısa qorxulu, təhlükəli məqamlardan söz gedə bilməz. Onlar sadəcə konyuktura və populistliklə məşğul olurlar. İddialarında həqiqət və reallıq payı yoxdur. Qeyd edim ki, bu məsələyə iclas zamanı dövlət başçısı özü də toxundu və qətiyyətli şəkildə bildirdi ki, bu borc yaxın illərdə daha da azaldılacaq. Yəni, dövlət, hökumət səviyyəsində qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Bu məsələ ilə bağlı hətta müvafiq proqram da hazırlanıb.

Dövlət başçısının bir daha qeyd etdiyi kimi, biz borcu tədricən azalda-azalda getməliyik. O, *"Düzdür, 19 faiz də indi dünya miqyasında çox gözəl göstəricidir. Elə ölkələr var ki, xüsusilə inkişaf etmiş ölkələr, orada xarici borc ümumi daxili məhsulun 100-120 faizini təşkil edir. Əgər hansısa ölkədə 50 faiz təşkil edirsə, o ölkə sabit, iqtisadi cəhətdən sabit ölkə kimi tanına bilər. Bizdə isə 19 faizdir, mən hələ bunu çox görürəm. Hesab edirəm ki, bu, daha da düşməlidir və düşəcəkdir. Əlbəttə, əgər xarici borcumuzu valyuta ehtiyatlarımızla müqayisə etsək görərik ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, istənilən vaxtda biz xarici borcu tam ödəyə bilərik. Bu, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, biz baxmayaraq ki, bir çox kreditlər ala bilirik, ancaq mən göstəriş vermişəm, kreditlərin alınması məhdudlaşdırılsın"*, - deyərək kredit almağa ehtiyac olmadığını, sadəcə texnoloji tutumlu layihələrlə bağlı istisna hal kimi müəyyən məbləğdə kredit alınmasının mümkünlüyünü sözlərinə əlavə etdi.

Bunun özü bir daha onu sübut edir və onu tam qətiyyətlə söyləməyə əsas verir ki, xarici borc məsələsindən bəhanə gətirib dövlətin, hökumətin, hakimiyyətin üzərinə yürümək cəhdləri tam səmərəsizdir, əsassızdır və perspektivsiz bir yoldur. Bu məsələ ən çox elə dövlətin, ölkə rəhbərinin özünün diqqətində olan məsələdir və bu istiqamətdə də lazımı addım atılır və bundan sonra da atılacaq.

İqtisadi inkişaf göstəricilərimizə onu da əlavə etmək olar ki, keçən il 118 min daimi iş yeri yaradılıb. İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo - yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Bir çox ölkələrdən fərqli olaraq,Azərbaycanda idxal ixracı üstələyir. Özü də ölkəyə ixracla bağlı daha çox - 8,6 milyard dollar pul gətirilib, nəinki xərclənilib. Əgər buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək, onda görərik ki, rəqəm daha da artacaq. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib ki, bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizə 2 milyard dollar pul xərcləyiblər. Bununla yanaşı, ölkəmizə turizm axınını daha da sürətləndirmək üçün digər zəruri tədbirlər də görülməli, xüsusilə, iaşə-servis xidmətləri dünya səviyyəsinə qaldırılmalıdır. Özünüz də görürsünüz ki, qardaş Türkiyədə turizmlə bağlı hansı böyük uğurlara nail olunub. Bu uğurların əsasında isə son dərəcə müasir və dünya



standartlarına cavab verən iaşə, servis, qulluq xidməti dayanır. Artıq Türkiyə bu məsələdə dünya üçün bir örnəyə, nümunəyə çevrilib. Elə bilirəm ki, istər daxili, istər xarici, istər yay, istər qış turizminin inkişafı üçün gözəl imkanlara, təbii sərvətlərə malik olan ölkəmizdə bu istiqamətdə də uğurların, nailiyyətlərin əldə edilməsi mümkündür və vacibdir...

- Son iclasda diqqətçəkən məqamlardan biri həm də gömrük və vergi sistemində aparılan islahatlarla bağlı məsələ oldu. Qeyd edək ki, parlamentin son payız sessiyasında da vergi sahəsində islahatları dərinləşdirmək məqsədi ilə Vergi Məcəlləsinə bir sıra ciddi dəyişikliklər edildi…

- Bunlar da çox mühüm məqamlardır. Çünki uzun illər idi ki, hər iki sahə ilə bağlı problemlər, cəmiyyəti narahat edən məqamlar mövcud idi və həllini gözləyirdi. Özü də qeyd edim ki, istər gömrük, istərsə də vergi ilə bağlı hələ ötən ilin iyulunda 2018-ci ilin 6 ayının yekunlarına həsr edilmiş iclasda çox ciddi şəkildə bəhs edilmiş, dövlət başçısı tərəfindən çox ciddi tapşırıqlar verilmişdi. Artıq verilən tapşırıqların, xəbərdarlıqların müsbət nəticələri göz önündədir. Kimin nə deməsindən asılı olmayaraq, hər iki sahədə müsbət irəliləyişlər, uğurlar mövcuddur. Ona görə ki həm vergi, həm də gömrük sahələrində artıq yeni yanaşma mövcuddur. Dövlət başçısının özünün də qeyd etdiyi kimi, "hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyan bu qurumlar indi çox yaxşı işləyir, şəffaflıq, dürüstlük təmin edilir. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaq".

Yəni, bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Bir sözlə, tam sağlamlaşdırma prosesi gedir. Xüsusilə də, vergi sahəsində çox dərin islahatlar aparılır. Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Dövlət başıçısı bu məqama toxunarkən *"Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü. Vergi sahəsində özbaşınalıq hökm sürürdü, bir çox xoşagəlməz əməllər müşahidə olunurdu. Bütün bunlara son qoyulmalı idi və son qoyuldu. Keçən ilin təcrübəsi onu göstərir ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir. Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də görəcəyik"*, - deyə qeyd etdi və bir daha qətiyyətli şəkildə bildirdi ki, bu sahələrdə, istər vergidə, istərsə də gömrükdə tam şəffaflıq və dürüstlük olmalıdır. Bu baxımdan, inanıram və qəti şəkildə əminəm ki, yaxın illərdə istər vergi, istərsə də gömrük sahəsində hamının görmək istədiyi, arzuladığı nəticələrə nail olmaq mümkün olacaq. Çünki bu məsələdə Azərbaycan dövlətinin, ölkə rəhbərliyinin, eyni zamanda, adıçəkilən qurumlara təyin edilən gənc və perspektivli insanların iradəsi, mövqeyi ortadadır.

Həmçinin, qeyd edim ki, ötən ilin nailiyyətlərinin bu il də davam etdirilməsi, uğurlarımızın sırasına daha yenilərinin əlavə edilməsi, inkişafımızda daha böyük zirvələrin fəth olunması gözlənilir. Belə ki, bu il 400 meqavat gücündə "Şimal-2" elektrik stansiyasının işə düşməsi, investisiya proqramı çərçivəsində ən azı 1000 kilometr yeni yolun salınması, 80 min hektara suyun verilməsi, təxminən 5000 köçkün ailəsi üçün yeni mənzillərin tikilib istifadəyə verilməsi, 100-dən çox yeni məktəbin tikintisi, 10-a yaxın mərkəzi rayon xəstəxanasının açılışı gözlənilir. Eyni zamanda, bu il daha üç Olimpiya İdman Kompleksinin, beş "ASAN xidmət" mərkəzinin açılması, bununla belə, özünüməşğulluq proqramından ən azı yeddi min ailənin faydalanması gözlənilir. Bunlar həm gözləntilər, həm də tezliklə şahidi olacağımız hadisələrdir, reallıqlardır.

- Son olaraq, bir məsələyə də - 2019-cu ilin "Nəsimi İli" elan edilməsinə də münasibətinizi bilmək istərdik.

- Bu, çox böyük mədəni və tarixi hadisədir. Bildiyiniz kimi, bu il dahi Azərbaycan şairi və mütəfəkkiri İmaddədin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Hələ ötən ilin 15 noyabr tarixində də bununla bağlı dövlət başçısının müvafiq sərəncamı olub. Yəni, onun yubileyinin dövlət səviyyəsində, təntənəli şəkildə qeyd edilməsi qərara alınıb. Odur ki, adıçəkilən iclasda həm 2019-cu ilin "Nəsimi İli" elan edilməsi, ardınca isə bununla bağlı sərəncamın imzalanması Nəsiminin 650 illik yubiliyenə, onun ruhuna, xatirəsinə ən böyük töhfədir. Bu, həm də Azərbaycan dövlətinin, ölkə prezidentinin sözə, söz adamlarına, yaradıcılığa, mütəfəkkirlərimizə, örnəklərimizə verdiyi dəyərin, qiymətin daha bir və əyani sübutu, nümunəsidir. Buna görə hər birimiz dövlət rəhbərinə öz dərin minnətdarlığımızı bildiririk.

Ölkələrin inkişafı, qüdrəti təkcə onların iqtisadi, hərbi gücləri ilə ölçülmür, həm də milli sərvətləri, dahiləri, mütəfəkkirləri, parlaq, aydın təfəkkürlü ziyalıları ilə ölçülür. Çox xoşbəxt xalqıq ki, bizim də həm təbii, həm mənəvi milli sərvətlərimiz çoxdur. Dünyaya səs salan Nizami, Xaqani, Füzuli, Xətai, Nəsimi, Üzeyir bəy Hacıbəyov, Mirzə Ələkbər Sabir, Mirzə Cəlil, Müslüm Maqomayev, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Rəşid Behbudov, Yusif Məmmədəliyev, Ziya Bünyadov, Toğrul Nərimanbəyov, Lütfi Zadə, Tahir Salahov kimi böyük mütəfəkkirlərimiz var. Onlar bizim milli kimlik pasportumuzdur. Odur ki, onların daim xatırlanması, anılması, tədqiq edilməsi, yayılması lazımdır və vacibdir. Bu, bizim onlar qarşısında övladlıq, vətəndaşlıq, vəfa borcumuzdur.

Müsahibəni apardı:
Kamil HƏMZƏOĞLU

2018-ci ildə gələcək illərin iqtisadi inkişafının təməlləri atılıb

Bu barədə Maliyyə naziri Samir Şərifov Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib. O qeyd edib ki, ötən il "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa, Vergi Məcəlləsinə mühüm dəyişikliklər edilib, yeni büdcə və ortamüddətli xərclərin formalaşdırılması qaydası, dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiya, yeni vahid büdcə təsnifatı təsdiqlənib. Qeyd olunan sənədlər qeyri-neft sektorunda vergi yükünün azaldılmasını, büdcənin sabitliyinin və ortamüddətli dayanıqlığının təmin edilməsini, dövlət xərclərinin prosiklikliyinin aradan qaldırılmasını, maliyyə inzibatçılığının və hesabatlılığın daha da artırılmasını, ölkədə dayanıqlı və idarəolunan dövlət borcunun səviyyəsinin müəyyən edilməsini, bu sahədə risklərin qarşılanması sisteminin təkmilləşdirilməsini və nəzarət mexanizminin gücləndirilməsini özündə birləşdirir.

2018-ci il, eyni zamanda, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, qlobal ticarətdə proteksionizmin və ticarət müharibələrinin vüsət aldığı bir zamanda xarici şokların ölkə iqtisadiyyatına təsirlərinin neytrallaşdırılması ili kimi də dəyərləndirilə bilər. Büdcə-fiskal siyasətin monetar siyasətlə sıx əlaqəli şəkildə həyata keçirilməsi nəticəsində il ərzində milli valyutanın sabitliyi qorunub, inflyasiyanın cilovlanmasına və ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz-bənd azalmasına nail olunub.Xarici ticarət balansındakı müsbət saldo tədiyyə balansının cari əməliyyatlar hesabının 5 milyard ABŞ dollarına qədər, məcmu valyuta ehtiyatlarının isə ötən ilin əvvəlinə nisbətən 3,0 milyard ABŞ dolları məbləğində və ya 6,5 faiz artmasını şərtləndirib.

2018-ci ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları nəzərə alınmadan hökumətin valyuta ehtiyatları xarici dövlət borcumuzu 4,3 dəfə üstələməklə ümumi daxili məhsulun 83,5 faizini təşkil edib.

Ötən il ölkə iqtisadiyyatının dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına da öz müsbət təsirini göstərib. Operativ məlumatlara əsasən, 2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri 26 milyard 334 milyon manat icra olunub. İcmal büdcədə 4 milyard 700 milyon manat büdcə artıqlığı və ya ümumi daxili məhsula nisbətdə 5,9 faizlik profisit əldə edilib. 2017-ci illə müqayisədə gəlirlər müvafiq olaraq 6 milyard 750 milyon manat və ya 28,9 faiz, xərclər isə 1 milyard 151 milyon manat və ya 4,6 faiz çox icra olunub.

2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 411 milyon manat və yaxud təsdiq olunmuş proqnoza nisbətən 262,0 milyon manat çox icra edilib. Dövlət büdcəsinin kəsiri 951,0 milyon manat proqnoza qarşı faktiki olaraq 644,0 milyon manat az olub və ya 307,0 milyon manatadək daralıb.

Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artımla icra edilməsi xüsusilə qeyd olunmalıdır. Bu daxilolmalar 9 milyard 10 milyon manat və yaxud 102,4 faiz icra edilməklə proqnozda nəzərdə tutulduğundan 207,0 milyon manat, 2017-ci illə müqayisədə isə 378,0 milyon manat və ya 4,4 faiz çox təşkil edib.

2018-ci ildə Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 418 milyon manat və yaxud 100,5 faiz, 2017-ci ilə nisbətən 444,0 milyon manat və ya 6,4 faiz çox icra edilib.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 3 milyard 434 milyon manat və ya proqnoza nisbətən 244,0 milyon manat çox vəsait daxil olub. Bu 2017-ci illə müqayisədə 825,0 milyon manat və ya 31,6 faiz çoxdur.

Dövlət əmlakının özəlləşdirilməsi üzrə proqnoz 1,2 faiz artımla yerinə yetirilərək büdcəyə 101,2 milyon manat vəsait təmin edilib.

2018-ci ilin dövlət büdcəsinin xərcləri 22 milyard 719 milyon manat və yaxud 98,4 faiz icra edilib ki, bu da 2017-ci ilin icra göstəricisindən 0,3 faiz-bənd çoxdur.

Ötən il dövlət və icmal büdcələrdə nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları və prioritet kəsb edən layihələr tam həcmdə maliyyələşdirilib.

Hesabat ilində dövlət büdcəsi xərclərinin 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosialyönlü xərclərin payına düşür ki, bu da 2017-ci illə müqayisədə 506,0 milyon manat və ya 7,6 faiz çoxdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da 10 faiz artırılıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsində əlavə olaraq 446,0 milyon manat təminat yaradılıb.

Sosialyönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436,0 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq 100,0 və 50,0 milyon manat vəsait ayrılıb.

Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib, ordumuzda uzun müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara verilmiş mənzillərin sayı 1284-ə çatdırılıb.

Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi qeyd etmək yerinə düşər ki, hesabat ili ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilib, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15,0 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

Hesabat ilində sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin maliyyələşdirilməsi üçün dövlət investisiya proqramı hesabına 5 milyard 64 milyon manat və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu hesabına 301,0 milyon manat – cəmi 5 milyard 365 milyon manat vəsait sərf edilib.

2018-ci ildə təsdiq etdiyiniz dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiyanın icrasına başlanılıb və ötən il ərzində görülən tədbirlər hesabına xarici dövlət borcunun ümumi daxili məhsula nisbəti ilin əvvəlindəkindən 3,8 faiz-bənd azalıb və 19,0 faiz təşkil edib.

Bununla yanaşı, daxili qiymətli kağızlar bazarının təşviqi, bank və sığorta sektorunun inkişafı üçün maliyyə alətlərinə olan tələbatın ödənilməsi, habelə dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə il ərzində daxili bazarda 1 milyard 81 milyon manat məbləğində daxili dövlət borc kağızları yerləşdirilib.

Ümumiyyətlə, dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclərə 2 milyard 260 milyon manat vəsait istifadə olunub.

Ötən il dövlət büdcəsinə 3 milyard 434 milyon manat gömrük ödənişi köçürülüb

Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Onun sözlərinə görə, 2018-ci ildə ölkə iqtisadiyyatının inkişafında və büdcənin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik olan Dövlət Gömrük Komitəsi vasitəsilə ilin əvvəlində nəzərdə tutulan proqnozla müqayisədə 1 milyard 4 milyon manat və ya 141 faiz çox gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb.

O, qeyd etmişdir ki, hesabat dövründə ticarət dövriyyəsi 30 milyard 924 milyon ABŞ dolları təşkil edib. İxracın həcmi 19 milyard 460 milyon dollar, idxalın həcmi isə 11 milyard 465 milyon ABŞ dolları olub. 2017-ci illə müqayisədə 2 milyard 682 milyon ABŞ dolları məbləğində artan idxalın həcminin heç də hamısı vergitutma bazası deyil. Artan idxalın tərkibində strateji qızıl ehtiyatlarını artırmaq məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Mərkəzi Bankı tərəfindən imtiyazlı qaydada ölkə ərazisinə gətirilən, dövlət əhəmiyyətli 803.0 milyon dollar dəyərində qızıl külçələr, eyni zamanda, müxtəlif təsərrüfat subyektləri tərəfindən ölkəyə idxal olunan 300 milyon dollar məbləğində avadanlıq və mexaniki qurğular və digər imtiyazlı mallar təşkil edib.

Səfər Mehdiyev bildirmişdir ki, 2018-ci ildə ölkə ərazisinə gətirilən mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti daha da gücləndirilib, gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirləri genişləndirilib. Əməliyyat-axtarış fəaliyyəti istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 747 cinayət xarakterli və 9672 hüquqpozma faktı aşkarlanıb.

Azərbaycan gömrük xidməti idarəetmə prinsipini tam kağızsız texnologiya əsasında qurmaqla elektron bəyanetmə sistemini 100 faizə çatdırıb və dünyanın qabaqcıl ölkələri sırasına daxil olub. 2018-ci ildə Komitəyə 11 növ elektron xidmət üzrə 3 milyon 777 min elektron müraciət daxil olub və gömrük xidməti göstərilib.

Sosial müdafiə sisteminin inkişafına xidmət edən geniş islahatlar paketi hazırlanıb

Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid platforma və "bir pəncərə"dən, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və "DOST" mərkəzlərinin yaradılmasına başlanıb. Prezident İlham Əliyevin 2018-ci il 9 avqust və 10 dekabr tarixli fərmanlarına əsasən "DOST" layihəsinin hüquqi və institusional işləri artıq başa çatıb.

"DOST" mərkəzlərində birbaşa, telefon və internetlə, səyyar və tam avtomatlaşdırılmış qaydada 124 xidmət göstəriləcəkdir. Tezliklə Yasamal rayonunda ilk "DOST" mərkəzinin açılması, cari ildə Bakıda daha 3 mərkəzin yaradılması nəzərdə tutulur.

Eyni zamanda, elektron xidmətlərin genişləndirilməsi məqsədilə "e-sosial" internet portalı, "Məşğulluq" sistemi və 18 alt sistemdən ibarət Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılıb.

Nazir deyib: "Pensiya təyinatı sahəsində "Pensiyaçının dostu" proqramı hazırlanıb və cari ildən avtomatlaşdırılmış pensiya təyinatına başlanıb. Bu innovativ yanaşma əsasında, vətəndaşın hüququ yarandığı gün elektron qaydada pensiya təyinatı aparılır, ona pensiya məbləği, ödəniş kartını əldə edəcəyi bank filialı barədə "sms", e-mail və məktub göndərilir.

İslahatın tərkib hissəsi kimi, fərdi hesabında pensiya kapitalı olan şəxslərə 2006-cı ilədək 25 il sığorta stajı avtomatik hesablanır. Cari ildə əlavə olaraq 19 min 500 nəfərin pensiya almasına və onların aylıq gəlirlərinin 48 faiz artmasına imkan yaradacaqdır. Artıq 628 şəxsə elektron qaydada pensiya təyin edilib və pensiya hüququ yaranacaq şəxslərin 70 faizinin, yəni 36 min nəfərin pensiya təyinatı məhz avtomatlaşdırılmış şəkildə aparılacaqdır".

Hesabat ilində inzibatçılığın təkmilləşdirilməsi və ciddi nəzarət tədbirləri nəticəsində Dövlət Sosial Müdafiə Fondu tərəfindən sosial sığorta haqları 2017-ci ilə nisbətən 246 milyon manat çox yığılaraq 2 milyard 332 milyon manata çatıb.

Qeyri-büdcə sektoru üzrə yığım 1 milyard 494 milyon manatı keçib, əvvəlki illə müqayisədə 152 milyon manat çox, proqnozla müqayisədə isə 6,1 faiz və ya 86 milyon manat çox olub.

Ötən il Fondun xərcləri 3 milyard 682 milyon manat təşkil edib və bunun 97,8 faizi əhaliyə ödənişlərə yönəldilib. Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardımı proqramının icrası davam edib, dekabrda yardımın orta aylıq məbləği 189 manata çatıb, il ərzində 104 milyon manat vəsait xərclənib.

Şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramı da uğurla davam edib.

Ötən il istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,3 faiz bahalaşıb

2018-ci ildə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilə nisbətən 2,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,7 faiz, qeyri-ərzaq mallarının qiymətləri 2,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,7 faiz bahalaşıb.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, ötən ilin dekabr ayında noyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,7 faiz, qeyri-ərzaq mallarının qiymətləri 0,2 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,1 faiz bahalaşıb.

Ötən ilin dekabr ayında noyabr ayı ilə müqayisədə uzun düyünün, unun, qoyun və toyuq ətinin, kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsulları və pendirin, zeytun və qarğıdalı yağlarının, bananın, armudun, xurmanın, qozun, fındığın, şabalıdın, xiyarın, pomidorun, bibərin, çuğundurun, kartofun, soğanın, qəhvə, çay və kakaonun, tütün məmulatlarının, spirtli içkilərin qiymətlərində bahalaşma, yumru düyünün, manna və qarabaşaq yarmasının, vermişel və makaronun, mal ətinin, yumurtanın, limonun, portağalın, naringinin, almanın, kələmin, göyərtinin, yerkökünün, sarımsağın, şəkər və şəkər tozunun qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ay ərzində qeyri-ərzaq mallarından parçaların, geyimin, ayaqqabıların, mebel və ev əşyalarının, minik avtomobillərinin, planşet tipli kompüterlərin, fotoaparatların, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının qiymətlərində bahalaşma, paltaryuyan maşınların, kondisionerlərin, minik avtomobilləri üçün ehtiyat hissələrinin, mobil telefonların qiymətlərində isə ucuzlaşma müşahidə olunub.

Dekabr ayında noyabr ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən paltarların təmizlənməsi, təmiri və kirayəsi, dəmir yolu və hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin, respublikadan kənara istirahət turlarının qiymətləri bahalaşıb, MDB ölkələri istisna olmaqla hava nəqliyyatı ilə digər ölkələrə sərnişindaşıma xidmətlərinin qiymətləri isə ucuzlaşıb. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Keçən il Azərbaycanda ümumi daxili məhsul 1,4 faiz artıb

2018-ci ildə Azərbaycanda ÜDM 1,4 faiz, qeyri-neft sektoru 1,8 faiz, sənaye məhsulu istehsalı 1,5 faiz, qeyri-neft sənayesi 9,1 faiz, kənd təsərrüfatı üzrə istehsal isə 4,6 faiz artıb.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir bildirib ki, ötən il 11 milyard manatı qeyri-neft sektoruna olmaqla, ölkə iqtisadiyyatına 17,2 milyard manat investisiya yatırılıb, strateji valyuta ehtiyatları 45 milyard dollar təşkil edib.

Азербайджан находится на очень активной позиции для того, чтобы занять свое место в мировой торговле

Торговый дом Азербайджана, открывшийся в Дубае, - седьмой по счету торговый дом нашей страны за рубежом. Его открытие является результатом выполнения поручений Президента Ильхама Алиева в сфере увеличения экспорта ненефтяной продукции и выведения ее на новые рынки, а также должно расцениваться, как очередная поддержка предпринимательству. Эти условия создаются для доставки качественной и отвечающей международным стандартам продукции азербайджанских предпринимателей на зарубежные рынки.

Об этом в интервью АЗЕРТАДЖ сказал министр экономики Шахин Мустафаев.

Министр отметил, что связи между Азербайджаном и Объединенными Арабскими Эмиратами (ОАЭ) успешно развиваются, и открытие Торгового дома должно расцениваться и как свидетельство дружественных и братских отношений между нашими странами, а также проявление интереса к расширению торгово-экономических связей. Начало деятельности Торгового дома внесет вклад в дальнейшее расширение этих связей.

Министр подчеркнул, что относительно экономической сферы, объем взаимных инвестиций увеличивается год от года. В Азербайджане зарегистрированы 290 компаний ОАЭ. «До настоящего времени ОАЭ вложили в Азербайджан инвестиции в размере 2,1 млрд долларов, а наша страна вложила в ОАЭ инвестиции в размере 330 млн долларов. В то же время, азербайджанские компании действуют в ОАЭ. За 11 месяцев прошлого года торговый оборот увеличился на 51 процент по сравнению с соответствующим периодом прошлого года. Это очень успешный показатель. Считаем, что потенциал для сотрудничества еще более широк, используя его, можно достичь еще больших успехов.

Завершено более 70 процентов работ по строительству компрессорных станций TAP

В Греции и Албании завершено более 70 процентов работ по строительству компрессорных станций в рамках реализации проекта Трансадриатического газопровода (TAP).

Об этом сообщила директор по коммуникациям TAP AG Лиза Гиверт.

«В рамках реализации проекта TAP с пропускной способность 10 миллиардов кубометров в год, строительство двух компрессорных станций в Кипоиде (Греция) и в Фирде (Албания) продолжается в соответствии в графиком. Строительные работы компрессорной станции в Кипоиде завершены на 79 процентов, в Фирде – на 74 процента», - сказала Л.Гиверт.

По ее словам, поставка труб в Кипоид завершена и установлено более 90 процентов труб. Тестирование водостойкости продолжается в соответствии с графиком.

Отметим, что после завершения строительства компрессорных станций будут проведены испытания начальной подготовки к вводу в эксплуатацию и полного ввода в эксплуатацию.

Выполнено более 82 процента инженерно-проектировочных и строительных работ в рамках реализации проекта TAP. Стоимость проекта составляет 4,5 миллиарда евро. Трубопровод проходит через три европейские страны - Грецию, Албанию и Италию. Первоначальная пропускная способность TAP составит 10 миллиардов кубометров в год, в будущем предусматривается ее увеличение до 20 миллиардов кубометров.

Трансадриатический трубопровод обеспечит энергобезопасность Италии

Трансадриатический трубопровод (TAP) обеспечит Италию новым источником газа и повысит ее энергетическую безопасность.

Об этом сообщает АЗЕРТАДЖ со ссылкой на сообщение консорциума TAP AG.

В сообщении говорится: «Италия является страной с высокими рисками с точки зрения энергетической безопасности: энергоресурсы поступают от ограниченного количества стран-поставщиков, и некоторые долгосрочные контракты по поставкам газа в Италию истекают к 2020 году, сроки пересмотра которых еще не определены». Согласно сообщению, более 90 процентов потребностей

Италии в газе обеспечивается из-за рубежа по трубопроводам или в виде сжиженного природного газа. «TAP повысит уровень энергетической безопасности Италии, увеличит источники поставок, усилит конкуренцию, способствуя снижению цен для населения и предприятий», - говорится в сообщении консорциума TAP AG.

В то же время, согласно сообщению консорциума, TAP использует самые современные технологии для минимизации воздействия на окружающую среду.

Южный газовый коридор будет обсужден на Европейской газовой конференции

На традиционной Европейской газовой конференции, которая состоится 28-30 января в Вене, будет обсужден Южный газовый коридор и проекты, являющиеся сегментами проекта.

На панели под названием «Трубопроводные проекты, поддерживающие поставки в Европу» будут обсуждены проекты TAP и TANAP, в рамках другой панели состоятся обсуждения на тему «Развитие Южного газового коридора».

Ожидается, что в конференции примут участие вице-президент SOCAR по инвестициям и маркетингу



Виталий Бейлярбеков, вице-президент компании BP по Южному газовому коридору Джо Мерфи и исполнительный директор TAP Лука Шиппати.

В мероприятии, наряду с официальными лицами Европейской комиссии и различных стран, также примут участие представители таких компаний как «OMV», «Газпром», «Uniper», «Eni», «Total», «Equinor», «Fluxys».

BP: Эффективность эксплуатации платформы «Чираг» в 2018 году составила более 98 процентов

Эффективность эксплуатации платформы «Чираг» в 2018 году составила более 98 процентов.

Информацию об этом распространила компания BP.

«Эффективность эксплуатации самой старой платформы «Чираг» блока месторождений «Азери-Чираг-Гюнешли» (АЧГ) в 2018 году составила более чем 98 процентов», - говорится в сообщении.

Отметим, что первая скважина была пробурена на месторождении «Чираг» в 1997 году. Нефть была добыта на платформе «Чираг» 12 ноября того же года в рамках «Контракта века».

Общая добыча нефти с блока месторождений «Азери-Чираг-Гюнешли» в азербайджанском секторе Каспия достигла 3,5 миллиарда баррелей. В январе-сентябре прошлого года добыча нефти с блока месторождений АЧГ составила 161 миллион баррелей или 22 миллиона тонн. Общий ежедневный объем добычи нефти с АЧГ в среднем составляет 588 тысяч баррелей, в том числе с платформы «Чираг» - 47 тысяч, «Центральный Азери» - 156 тысяч, «Западный Азери» - 126 тысяч, «Восточный Азери» - 97 тысяч, «Глубоководный Гюнешли» -105 тысяч и «Западный Чираг» - 57 тысяч.

В конце сентября на АЧГ было задействовано 112 нефтедобывающих, 53 газовые и 4 водно-инжекторных скважины. В течение трех кварталов прошлого года было пробурено 5 нефтяных и 3 водно-инжекторые скважины. За девять месяцев прошлого года в рамках проекта АЧГ операционные затраты составили около 367 миллионов долларов, капитальные - 825 миллионов долларов.

Россия, Иран и Азербайджан готовят новый трехсторонний саммит



Россия занимается подготовкой трехстороннего саммита с Ираном и Азербайджаном. Об этом, как передает Trend, заявил в среду министр иностранных дел РФ Сергей Лавров на пресс-конференции по итогам 2018 года. «Очередь за нами принимать очередной саммит Россия-Иран-Азербайджан. Мы такой саммит готовим. Я вас уверяю, он состоится», - сказал глава МИД.

Что касается других возможных форматов с участием Азербайджана, Лавров отметил, что пока разговоры об этом не перешли в практическую плоскость.

Напомним, что трехсторонний саммит президентов Азербайджана, России и Ирана состоялся в Тегеране в ноябре 2017 года.

Баррель «Азери Лайт» продается за 61,52 доллара

Цена азербайджанской нефти снижается.

Цена барреля нефти марки «Азери Лайт», подешевев на 0,59 доллара, составила 61,52 доллара.

Отметим, что цена барреля азербайджанской нефти, снизившись в декабре 2001 года до минимума, составила 19,15 доллара, а в июле 2008 года достигла максимума - 149,66 доллара.

Цены на нефть на мировых биржах

Цены на нефть на мировых биржах продолжают расти.

На лондонской бирже ICE (InterContinental Exchange Futures) цена одного барреля нефти марки «Брент», подорожав на 0,10 доллара, составила 60,74 доллара, на нью-йоркской бирже NYMEX («New York Merchantile Exchange») цена одного барреля нефти марки «Лайт», увеличившись на 0,06 доллара, составила 52,17 доллара.

UNCOPA akademik Xoşbəxt Yusifzadəni ordenlə təltif edib



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə dünya elmi və iqtisadiyyatı qarşısında xidmətlərinə görə "Avropa xidmət" ordeni ilə təltif edilib.

İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən UN Council for Public Awards (UNCOPA) təşkilatı özünün 2018-ci il 27 dekabr tarixli qərarı ilə Azərbaycanın məşhur neftçi-alimi, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəni dünya elmi və iqtisadiyyatı qarşısında xidmətlərinə görə "Avropa xidmət" ordeni ilə təltif edib.

Koreya Respublikası Azərbaycan iqtisadiyyatına 180 milyon dollaradək investisiya yatırıb

Koreya Respublikası tərəfindən Azərbaycan iqtisadiyyatına 180 milyon dollara yaxın, Azərbaycan tərəfindən isə bu ölkəyə 474 milyon dollar investisiya yatırılıb.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib. Nazir qeyd edib ki, Azərbaycan və Koreya Respublikası arasında müqavilə-hüquq bazası yaradılıb, indiyədək ölkələrimiz arasında 57 sənəd imzalanıb. Azərbaycanda 74 Koreya şirkəti qeydiyyatdan keçib, həmin şirkətlər dövlət əsaslı layihələrdə podratçı qismində də iştirak edirlər.

Ş.Mustafayev iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin genişləndiyini, ötən ilin 11 ayında ticarət dövriyyəsinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə artdığını diqqətə çatdırıb.



Yeddi ölkənin iştirakı ilə Şərqi Aralıq dənizi Qaz Forumu yaradılıb

Aralıq dənizi sahillərində yerləşən 7 ölkə Şərqi Aralıq dənizi Qaz Forumunun (DAGF) təsis olunması barədə qərar qəbul edib.

Bu barədə Misirin Neft və Mineral Ehtiyatlar Nazirliyi məlumat yayıb.

Bildirilir ki, Şərqi Aralıq dənizi bölgəsində təbii qaz istehsalı, istehlakı və tranzit ölkələri bir araya gətirən DAGF Qahirədə təsis olunub. Belə ki, Kipr, Yunanıstan, İsrail, İtaliya, İordaniya, Fələstin və Misirin enerji nazirləri DAGF-nin yaradılması üçün Qahirədə toplaşıb. Həmin ölkələrin nazirləri regionda qaz potensialının səmərəli istifadəsi üçün texniki və iqtisadi

sahələrdə birgə əməkdaşlığın qurulması üçün razılaşıb. Qaz Forumunun əsas məqsədi tələb və təklifi təmin etməklə üzv ölkələrin mənafelərinə uyğun regional qaz bazarının yaradılmasıdır.

DAGF-nin mənzil qərargahı Qahirədə yerləşəcək və üzv ölkələrin nazirləri forumun strukturuna dair məsələləri müzakirə etmək üçün aprel ayında yenidən görüşəcək.

SOCAR Türkiyədə neft-kimya kompleksi üçün investisiyaların məbləğini açıqlayıb

SOCAR və BP-nin Türkiyədə neft-kimya kompleksinin tikintisi üzrə birgə layihəsinin investisiya dəyəri təxminən 1,5-2 milyard dollar təşkil edəcək.

Bunu "SOCAR Turkey Enerji"nin baş direktoru Zaur Qəhrəmanov deyib. Z.Qəhrəmanovun sözlərinə görə, neft-kimya kompleksinin tikintisi 2019-cu ilin ikinci yarısında planlaşdırılır:

"Biz müəssisənin 2022-ci ilin sonunda istifadəyə verilməsini gözləyirik".

"HSBC" bankı neftin qiymətinə dair proqnozunu azaldıb

Böyük Britaniyanın bank nəhəngi "HSBC" "Brent" markalı xam neftin qiyməti üzrə proqnozunu aşağı salıb.

"HSBC" cari ildə "Brent"in bir barrelinin orta qiymətinin 64 dollar olacağını nəzərdə tutur. Bank əvvəlki proqnozunda

2019-cu il üzrə "Brent" neftinin qiymətinin 80 dollar/barrel təşkil edəcəyini proqnozlaşdırırdı.

Banka görə, qlobal iqtisadiyyata dair proqnozlar qeyri-müəyyən qalmaqda davam edir. Həmçinin, ABŞ-da neft istehsalının artması və tələbatdakı qeyri-müəyyənliklər qiymətə dair proqnozun aşağı salınmasına təsir edən amillərdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub

İlham Əliyev: Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır

Son vaxtlar qəbul edilmiş qərarlar, qanunlar, verilmiş sərəncamlar bu məqsədi güdür ki, sahibkarlara heç kim mane olmasın, süni əngəllər aradan götürülsün, sahibkarlar maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləsinlər, ölkəmizə vəsait qoysunlar, iş yerləri yaratsınlar və Azərbaycanda biznes mühiti daha da yaxşılaşsın.

İlham Əliyev

Azərbaycan ən qədim zamanlardan neft ölkəsi olaraq tanınmış, bu isə bir çox dünya dövlətlərinin diqqətini çox yaxından cəlb etmişdir. Hələ XIX əsrdə Azərbaycanda neft hasilatı üzrə dünyada böyük nüfuza malik sahibkarlar sinfi formalaşmışdır. Bu sahibkarlar sinfi isə ölkəmizin iqtisadi inkişafında mühüm rol oynamış, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli mövqeyə malik olmuşlar. Beləliklə də, qədim tarixə malik olmaqla bərabər, böyük inkişaf yolu keçən sahibkarlıq fəaliyyəti ölkədə yerli sahibkarlığın inkişafına əsaslı zəmin yaratmışdır.

XX əsrin əvvəllərindən başlayaraq ölkəyə xarici investorlar tərəfindən investisiyalar qoyulmasına başlanıldı. Neft sənayesi ilə məşğul olan 167 müəssisənin 29%-i milli kapitala, 71%-i isə xarici kapitala məxsus idi. Bakı fəhlələrinin 44%-dən çoxu azərbaycanlılardan, qalanı isə gəlmələrdən təşkil olunmuşdu. 1901-ci ildə dünya üzrə neft hasilatının yarıdan çoxu Azərbaycana məxsus idi. Ölkəmizdə istehsal edilən sənaye məhsullarının 70-80%-i neftin payına düşürdü. Sənaye istehsalı tamamilə Bakıda yerləşmişdi. Təsadüfü deyildir ki, Bakı şəhərində 1912-ci ildə 462, 1915-ci ildə 549 sənaye müəssisəsi fəaliyyət göstərirdi. 1910-cu ildə təkcə neftçıxarma ilə 177 böyük firma məşğul idi.

Həmin dövrdə "Royal Döyçe Şell", "Standart oyl", "Xəzər-Qara dəniz" və "Mazut", "Nobel qardaşları" kimi iri investorlar ölkəmizə əsaslı kapital yönəltməyə başladılar. Məhz xarici sərmayəçilərin Azərbaycan iqtisadiyyatına yönəltdiyi 213 milyon manat kapitalın 8%-i Almaniyaya, 30,5%-i Fransaya, 53,3%-i İngiltərəyə məxsus idi. Burada isə əsas diqqət çəkən məqamlardan biri investorların fərqli sahələrə sərmayə qoymaqla müxtəlif sahələrin inkişafına zəmin yaratması idi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakı artıq sahibkarlığın inkişafı sahəsində böyük nüfuza malik iri sənaye mərkəzinə çevrilmişdi. Bu dövrdə kapitalın və istehsalın mərkəzləşməsi və təmərküzləşməsi prosesi xeyli sürətlənmişdi.Sənayenin sürətli inkişafı Azərbaycanda bank fəaliyyətinin də inkişafına əsaslı zəmin yaratmışdı. Belə ki, artıq 1913-cü ildə Bakıda 15 iri bank fəaliyyət göstərirdi ki, onlar idxal-ixrac əməliyyatlarında, kreditləşmə proseslərində mühüm rol oynayırdılar.

Həmin dövr ölkədə kənd təsərrüfatının dinamik inkişafı ilə də səciyyənirdi. İnkişaf edən əsas sahələrdən biri isə pambıqçılıq idi. 1914-cü ilin statistikasına əsasən, Azərbaycanda yığılan pambıq Zaqafqaziyada istehsal edilən pambığın 70%-ni təşkil edirdi. Kənd təsərrüfatındakı inkişaf təbii olaraq sənayenin digər sahələrinin də inkişafına təkan verirdi.

Həmin dövr, həmçinin ipəkçiliyin inkişafı ilə də xarakterizə olunur. XIX əsrdə Zaqatala, Füzuli, Naxçıvan, Ordubad, Şuşa, Şəki şəhərlərində, qəza mərkəzlərində və onlara yaxın yerlərdə 400-dən çox iri və xırda ipəksalma, ipəkburma müəssisəsi fəaliyyət göstərirdi. Azərbaycanda ipəkçiliyin geniş vüsət alması, ipək istehsalının artması inkişaf etmiş baramaçılığa əsaslanırdı. Həmçinin, tut plantasiyalarının çoxluğu da bu inkişafı sürətləndirən mühüm amillərdən idi. Dünya miqyasında məşhurlaşan Azərbaycan ipəyi elə bazarlarda da bu məhsul adı ilə tanınırdı. O dövrdə Zaqafqaziyada mövcud olan 120 ipək emalı fabrikinin 114-ü, hasil olunan baramanın 50%-dən çoxu, istehsal edilən ipəyin 2/3 hissəsindən çoxu Azərbaycanın payına düşürdü.

Ölkədə üzümçülüyün inkişafı da mühüm yer tuturdu. O dövrdə üzüm və şərab istehsalına görə ön sıralarda olan Azərbaycan 1901-ci ildə Zaqafqaziyadakı üzüm bağlarının 30%-nə, 1913-cü ildə 33,2%-nə malik idi. Müvafiq illərdə istehsal olunan üzüm məhsulunun 44,8% və 27,5%-i ölkəmizin payına düşürdü. XX əsrin əvvəllərində Azərbaycanda 1300-dən artıq irili-xırdalı ilkin şərab emalı, araq, konyak zavodları fəaliyyət göstərirdi.

Sahibkarlığın o dövr üçün geniş inkişaf etmiş sahələrindən biri də balıqçılıq idi. Bütün vətəgələr mükəmməl texnika ilə təchiz edilmiş və bütövlükdə iri şirkətlərin, səhmdar cəmiyyətlərin nəzarəti altında birləşdirilmişdi. Həmin dövrdə Azərbaycanın iri sahibkarlıq fəaliyyətinə aid sindikat tipli 4 balıqçılıq firması dünya bazarına ixrac edilən və valyuta ilə satılan ağ balıq kürüsünün 45%-ni verirdi. Təkcə balıqçılıqdan dövlət xəzinəsinə ildə orta hesabla 2 milyon manatdan çox vəsait daxil olurdu. Azərbaycanın balıq sənayesi mənfəət baxımından neft və şərab istehsalından sonra 3-cü yeri tuturdu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə digər sahələr kimi sahibkarlığın inkişafı da yeni mərhələyə qədəm qoydu. Düzdür, müstəqilliyin ilk illərində vəziyyətin qənaətbəxş olmaması bir sıra obyektiv və subyektiv amillərlə bağlı idi. 1993-cü ilə kimi iqtisadiyyatda baş verən ləngimə prosesləri tənəzzülün daha da sürətlənməsinə, iqtisadiyyatın dağılmasına ciddi təsir göstərdi, xeyli vəsait itkisinə səbəb oldu. 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət, həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olundu, iqtisadi islahatların həyata keçirilməsi üçün möhkəm əsaslar formalaşdırıldı.

Ölkədə sahibkarlığın əsaslı inkişafına isə 1996-cı ildən nail olundu: inflyasiya cilovlandı, büdcə kəsiri ÜDM-in 1-2%-i səviyyəsinə endirildi. 1996-cı ildə ÜDM-in artım sürəti 1,3%, 1997-ci ildə 5,8%, 1998-2004-cü illərdə isə orta hesabla 10% təşkil etmişdir.

Neft sektorunun uğurlu inkişafı öz növbəsində ənənəvi qeyri-neft sektoru sahələrinin inkişafına da təkan verdi. Sahibkarlığın inkişafının zəruri hüquqi mühitinin formalaşdırılması istiqamətində qəbul edilmiş Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları sahibkarlığın bir sistem halında hüquqi bazasını təşkil edirdi. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Bu dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılmışdır. Sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmış, sahibkarlara zəruri texniki yardım göstərən strukturlar formalaşmışdır. Sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində də dövlət səviyyəsində müəyyən addımlar atılmışdır. Belə ki, mənfəət və əlavə dəyər vergisi dərəcələri, məcburi sığorta haqqı aşağı salınmış, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid vergi tətbiq edilməyə başlanılmışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən iqtisadi müstəqilliyimizin bərpa olunmasından sonra qəbul olunmuş fərman və sərəncamlar sahibkarlığın inkişafında mühüm hüquqi baza rolunu oynamışdır. Bu baxımdan 1993-cü ildə təsdiq edilmiş "Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)'' Dövlət Proqramı, "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli və "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" 1999-cu il 7 yanvar tarixli fərmanlar, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" xüsusi yer tutur.

30 aprel 2001-ci ildə İqtisadi İnkişaf Nazirliyinin yaradılması da sahibkarlığın inkişafı sahəsində mühüm addımlardan olmuşdur. 27 avqust 2002-ci il tarixində İqtisadi İnkişaf Nazirliyi tabeliyində Sahibkarlığa Kömək Milli Fondunun əsasnaməsi qəbul olundu. 2002-2005-ci illər üzrə Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı qəbul edildi. Dövlət başçısının Sərəncamına əsasən 2004-cü ildə "Aqrolizinq" ASC-nin yaradılması nəticəsində güzəştli kreditlərlə kənd təsərrüfatı təyinatlı texnika və texnoloji avadanlıqların fermerlərə verilməsi, istifadə olunan yanacağın 50 faiz endirimlə satışı, mineral gübrələrin dəyərinin 50 faizinin ödənilməsi də sahibkarlıq sahəsində həyata keçirilən uğurlu tədbirlərdəndir.

Hazırda ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanıb. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. Strateji Yol Xəritəsində Azərbaycanda mərkəzləşdirilmiş Kiçik və Orta Sahibkarlıq (KOS) agentliyinin yaradılması da nəzərdə tutulmuşdur ki, onun da əsas məqsədi Azərbaycanda KOS fəaliyyətinin inkişafında uğur qazanmaq üçün aparıcı qüvvə rolunu oynamaq, Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin sayını, eləcə də bu sahibkarlıq subyektlərinin ümumi daxili məhsulda (ÜDM) payını 2020-ci ilədək qoyulan hədəflərə uyğun artırmaqdan ibarətdir. Qeyd edək ki, agentlik Prezident İlham Əliyevin 28 dekabr 2017-ci il tarixli fərmanına əsasən yaradılmışdır. Bu prioritetin tərkib hissəsi olaraq, Azərbaycanın real ÜDM-inin 2020-ci ildə 140 milyon manat birbaşa, 60 milyon manat dolayı olmaqla, ümumilikdə 200 milyon artacağı proqnozlaşdırılır. Prioritet çərçivəsində 2020-ci ildə 240 yeni iş yerinin yaradılacağı gözlənilir.

Mətanət Hüseynova

17-23 yanvar 2019-cu il

NƏSİRƏDDİN TUSİNİN SOSİAL-İQTİSADİ TƏLİMİNDƏ İNSAN VƏ İNSAN KAPİTALI

Tarix sübut edir ki, dünyada hər şeyi axtarıb tapan, hazırlayan, ortaya qoyan və yaradan insandır. Yer kürəsində 3,9 milyard ildir ki, insan yaranmışdır. Bizim sifətdə və formada olan insanlar 5 milyon ildir ki, əmələ gəlib.

İlk əmək alətləri, silahlar, ev-eşik, od-ocaq, qab-qaçaq, işıq, hərəkət vasitələri, metal, şüşə, yazı, dərman, pul, təqvim və s. məhz bu insanların beyni və düşüncəsinin nəticəsində yaranmışdır. Nəticədə insanlarda və dövlətlərdə sərvət, varidat, başqa sözlə, kapital yaranmışdır. Lakin elm sübut edir ki, adi halda insanın potensial elmi gücünün 5-10 faizindən istifadə edilir. Onun qalan əqli gücündən istifadə edilməsi üçün toplanmış maddi-maliyyə kapitalının (neft-qaz və s.) insan kapitalına çevrilməsi daha böyük elmi nəticələrin, kəşflərin, yeni məhsulların alınmasına, maliyyə-iqtisadi gəlirlərin yaranmasına, onun artmasına, ölkənin dayanıqlı və davamlı inkişafına və xalqın tərəqqisinə təkan vermiş olur.

Ona görə də dünyanın inkişaf etmiş ölkələri 70 ildən çoxdur ki, insanın əqli gücündən maksimum istifadə etməklə daha böyük gəlirlər əldə etmək üçün çalışır, bütün ölkələrin güclü beyinlərini tapır, toplayır, böyük vəsaitlər sərf etməklə, daha da böyük gəlirlərin əldə olunmasına nail olurlar. Çünki dövləti inkişaf etdirən, böyük gəlirlər əldə edən, xalqının tərəqqisinə nail olan da təhsildir, elmdir, innovasiyalardır və onun hərəkətverici qüvvəsi olan insan və insan kapitalıdır.

Azərbaycan Respublikası da məhz bu yolla gedərək, bütün iqtisadi gücünü, konkret olaraq neft kapitalını insan kapitalına çevirmək məqsədini qarşıya qoymuşdur. Hazırda neft kapitalı iqtisadi inkişafa və sosial rifaha xidmət edir. Bu istiqamətdə klassik filosof və iqtisadçıların insan və insan kapitalı təlimlərinin öyrənilməsi lazım gəlir və bu, çox vacibdir.

Klassik fəlsəfədə insan

Klassik yunan fəlsəfəsinin banisi, 2400 il bundan əvvəl 70 il yaşamış (e.ə. 469-399), ölümə məhkum edilmiş, böyük filosof Platonun müəllimi, dahi Sokrat, klassik yunan fəlsəfəsində Sokrat məktəbinin davamçısı, Sokratın şagirdi və Aristotelin müəllimi, 80 il yaşamış (e.ə. 428-348), Şərq dünyasında Əflatun kimi tanınan nəhəng filosof Platon, klassik yunan fəlsəfəsində Sokrat və Platon məktəbinin davamçısı, Platonun şagirdi və Makedoniyalı İsgəndərin müəllimi, 62 il yaşamış (e.ə. 384-322), Şərq dünyasında Ərəstun kimi tanınan nəhəng filosof Aristotel cəmiyyətin inkişafında insanın rolu və mövqeyini dahiyanə təlimləri ilə qiymətləndirmişlər.

XIII əsrdə yaşamış azərbaycanlı-türk ensiklopedik alimi – riyaziyyat, astronomiya, məntiq, psixologiya, ilahiyyat, coğrafiya, fəlsəfə, iqtisadiyyat və s. sahələrdə yüzdən artıq əsərin müəllifi Xacə Nəsirəddin Tusi dövrünün ən tanınmış Azərbaycan filosofu və iqtisadçısı olmuşdur. Tusinin əsərləri səkkiz yüz ildən artıq Orta, Yaxın Şərq və dünya elm ictimaiyyəti tərəfindən tədqiq edilir. Qeyd etmək lazımdır ki, «Əxlaqi-Nasiri» əsəri yeddi yüz ildən artıq Yaxın və Orta Şərq məktəblərində dərslik kimi istifadə edilmişdir.

N.Tusi «Əxlaqi-Nasiri» əsərində əmək, işgüzarlıq, fəaliyyət, hərəkət və kamil insanı təhlil etməklə, insanın yalnız şüurlu zəhmət (əmək) nəticəsində öz səadətinə qovuşa bilməsini və bunun mümkün olmasını elmi dəlillərlə sübut etmişdir.

N.Tusi təlimində insan

N.Tusi göstərir ki,

- … ölümdən deyil, faydasız yaşamaqdan qorxmaq lazımdır;
- insan yaşamaq üçün, hər şeydən əvvəl, yeməyə möhtacdır;
- heyvanların qidası təbiət tərəfindən hazır verilənlərdirsə, insanın qidası əmək, sənət və peşə olmadan – əkmək, biçmək, təmizləmək, üyütmək, yoğurmaq, bişirmək və s. olmadan mümkün deyildir;
- yenidən istehsal olmadan mal toplamaq və onu saxlamaq mümkün deyil, çünki xərc (istifadə) etmək zəruridir;
- yenidən istehsal edilə bilməyən və ya ələ gətirilə bilməyən şeylər … əldən verilməməlidir;
- çıxar (xərc) gəlirə bərabər və ya çıxar (xərc) gəlirdən az olmalıdır (Ç = G və ya Ç < G);
- əgər bir yerdə azlığa, başqa yerdə çoxluğa yol verilsə (sərvət), ədalət pozulsa, fisq-fəsad törəyər, məhəbbət ədavətə çevrilər, dostluq düşmənçiliyə dönər, nizam-intizam pozular, hərc-mərclik başlayar, səmimiyyət aradan qalxar, qurulan dağılar, hər şey məhv olar və s.

Əhali kəmiyyətcə yox, keyfiyyətcə artmalıdır

Yer kürəsinin ərazisi böyümür (710 mln. km2), su və quru ərazisi dəyişmir (71 faiz su, 29 faiz quru), daim dəyişilməyən sahəyə malikdir. Əhali isə sürətlə artır. Əgər dünyada əhalinin sayı 1500-cü ildə 458 milyon nəfər olmuşdursa, 1804-cü ildə dünyada birinci milyard nəfər tamam olmuşdur. Bundan 123 il sonra 1927-ci ildə 2 milyard, 33 il sonra 1960-cı ildə 3 milyard, 14 il sonra 1974-cü ildə 4 milyard, 13 il sonra 1987-ci ildə 5 milyard, 12 il sonra 1999-cu ildə 6 milyard, 12 il sonra 2011-ci ildə 7 milyard nəfər əhali olmuş, 2017-ci ildə 7,5 milyard nəfərə çatmışdır. 2050-ci ildə 8,9 milyard, 2111-ci ildə 15 milyard nəfərə çatacağı proqnozlaşdırılır.

Azərbaycanda da əhalinin sayı sürətlə artır. Azərbaycanda bir saat ərzində orta hesabla 18 uşaq dünyaya gəlir (2016), ölkə əhalisi 2018-ci ildə 10 milyona çatmışdır. Bu da onu göstərir ki, ərazi artmadığı halda əhali – insanlar sürətlə artır. Hazırda bəşəriyyəti bir problem düşündürür. Əhalinin kəmiyyət artımı yox, keyfiyyət artımına nail olmaq. Sağlam, savadlı, səriştəli, intellektual, innovativ, müasir bilikli insan hazırlamaq, insan kapitalı yaratmaq və inkişaf etdirmək.

Böyük ingilis iqtisadçısı Vilyam Petti XVII əsrdə yazırdı ki, «Əmək sərvətin atası, torpaq isə onun anasıdır». 300 ildən sonra dünyada gedən güclü inqilabi yenilik və dəyişikliklər sübut edir ki, XX əsrin ortalarından başlayaraq dünyada «Bilik (elm) sərvətin atası, texnologiya isə onun anasıdır» (MM). Texnologiyanı da insanlar yaradır.

Yəni, artıq insanlar təkcə fərd (adam) kimi yox, yaradıcı və qurucu olmaqla kapitala çevrilir, cəmiyyəti inkişaf etdirir, varlandırır, məhsuldarlığı artırır və saflaşdırır.

Buna görə də onlara ölkənin qızıl beyinləri deyilir. Fiziki-maddi, maliyyə və bütün digər kapitalların hamısı insan kapitalı üzərində dayanır və inkişaf edir.

İnsan düşünən, axtaran, tapan, ideya verən, yaradan, təkmilləşdirən, inkişaf etdirən, qoruyan, saxlayan, gücləndirən, əkən, biçən, yetişdirən, hərəkətə gətirən, əlaqələndirən, qulluq edən və canlandıran fiziki və əqli varlıqdır. Yaradıcı olduğu üçün də kapital, xüsusilə daim artıran kapitaldır.

Nəsirəddin Tusiyə görə cəmiyyətin dörd sinfi



Mənbə: Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsəri əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Nəsirəddin Tusiyə görə cəmiyyətin dörd sinfi

Nəsirəddin Tusi insanları cəmiyyətdəki yerinə, roluna, mövqeyinə, fəaliyyət sahələrinə, məşğuliyyətinə və əməyinə görə dörd sinfə bölür (sxemə bax).

Sxemdən göründüyü kimi, cəmiyyətdə qələm əhli təbiətin su, güc əhli od, xidmət əhli hava, torpaq əhli torpaq kimi təbiətin dörd ünsürü funksiyasını yerinə yetirirlər. Qələm əhli cəmiyyəti irəliyə aparan, güc əhli cəmiyyəti qoruyan, xidmət əhli cəmiyyətə xidmət edən, torpaq əhli cəmiyyəti yaşadanlardır. Qələm əhli cəmiyyəti su kimi təmizləyir, güc əhli cəmiyyəti od kimi isidir, xidmət əhli cəmiyyətə hava kimi nəfəs verir, torpaq əhli cəmiyyəti qidalandırır. Bunların heç biri təklikdə mövcud ola bilməz, hər biri digərinə təsir edir, əlaqələndirir, cəmiyyəti canlandırır və hərəkətə gətirir.

Sosial-iqtisadi təhlil və qiymətləndirməyə görə cəmiyyətdə – dünyada əhalinin, insanların 3 faizini qələm əhli (ziyalılar), 5 faizini güc əhli, 60 faizini xidmət əhli və 32 faizini torpaq əhli təşkil edir. Deməli, torpaq əhli hazırlayan, xidmət əhli çatdıran, güc əhli qoruyan və qələm əhli isə inkişaf etdirənlərdir ki, bunlar da insan kapitalının əsas elementləridir.

Vilyam Şekspir yazır ki, «xərcləməkdən əvvəl qazanan …» cəmiyyətdə kamil insandır (hər sahədə – MM).

Cəmiyyətin qələm əhli – ziyalıları insan kapitalının xəzinəsidir və milli sərvətidir. İnsan kapitalı insanın özü ilə bərabər dövlətini, xalqını, millətini və bəşəriyyəti inkişaf etdirir. Necə ki, İsaak Nyutonun ümumdünya cazibə qanunu ilə göy cisimləri öyrənilməyə başlandı, Thomson Edison elektrik lampasını icad etməklə bütün dünyanı işıqlandırdı, radionun yaradıcısı sayılan İtaliyalı alim G.Makroni uzaq ölkələri yaxınlaşdırdı, müasir avtomobilin yaradıcısı Karl Bens uzaq yolları birləşdirdi, Con Loqi Beyrdin hazırladığı ilk televizoru ilə (1923, İngiltərə) evlərə daxil oldu, kompüter maqnatı, «Mikrosoft» korporasiyasının banisi Bill Qeyts bütün dünyanın vahid informasiya sistemini yaratdı, Millət Atası Böyük Atatürk Türkiyə dövlətini yaratdı, dünyada sənaye üsulu ilə ilk neft quyusu (1846-cı il, Azərbaycan, Bakı, Bibiheybət mədəni) qazılmaqla neft çıxarılmasına başlandı, akademik Yusif Məmmədəliyev dünyada ilk dəfə yüksək oktanlı benzin ixtira etdi, görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi Marağa rəsədxanasını (1259-cu il, Cənubi Azərbaycan, Marağa şəhəri) açdı və s., və i.a. Bu kimi kəşflər və ixtiralar edildi, ildən-ilə, əsrdən-əsrə yeni-yeni məhsullar yarandı, insanların həyat şəraiti yaxşılaşdı, mədəni səviyyəsi yüksəldi, ümumi uzunömürlülük artdı və təbii ki, bu proses sürətlə davam edir və edəcəkdir. Bütün bunların da kökündə savadlanma, təhsil, elm və innovasiyalar durur.

Əsas iqtisadi göstəricilər üzrə dünya ölkələrinin inkişafının tədqiqi göstərir ki, hər bir ölkənin inkişafı təhsildən və elmdən başlayır, yüksək milli gəlir, adambaşına düşən yüksək gəlir, yüksək əməkhaqqı, həyat səviyyəsi, rifah, uzunömürlülük, sabitlik və firavanlıqla başa çatır.

Sokrat yazır: **«Yalnız bir xeyir var – bilik. Yalnız bir şər var – cəhalət».** N.Tusi yazır: «Hikmət» cinsinə daxil olan növlərin miqdarı yeddidir: birinci – zəka, ikinci – dərketmə, üçüncü – zehn aydınlığı, dördüncü – öyrənmə səviyyəsi, beşinci – ağıl gözəlliyi, altıncı – hafizə, yeddinci – hazırcavablıq». Hikmət cinsinə daxil olan bu elementlərin birləşməsi və əlaqələndirilməsi nəticəsində elmi təfəkkür formalaşır, bilik elmi nəticə verir, elmi ideya, elmi yenilik və elmi məhsul ortaya çıxır. Bütün bunları dünya təcrübəsi tam sübut etmişdir. «Bilik» insan beyni və düşüncəsinin məhsuludur, bilikli insan kapitalı harada varsa, orada inkişaf, tərəqqi və rifah da var. Harada «cəhalət» varsa, orada gerilik, yoxsulluq, aclıq və səfalət vardır.

Beləliklə, N.Tusinin sosial-iqtisadi təliminin əsaslarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- dünyadakı mövcudatın ən şərəflisi olan insandır…;
- insan yaşamaq üçün, hər şeydən əvvəl, yeməyə möhtacdır;
- heyvanların qidası təbiət tərəfindən hazır verilənlərdirsə, insanların qidası əmək sərf etmədən, hazırlamadan mümkün deyil;
- yenidən istehsal olmadan davamlı yaşamaq mümkün deyil;
- yenidən istehsal edilə bilməyənlər, qorunub saxlanılmalı və əldən verilməməlidir;
-ən azı xərc gəlirə bərabər olmalı və inkişaf üçün xərc gəlirdən az, gəlir xərclərdən çox olmalıdır;
- sərvətin bölgüsü ədalətli olmalıdır, ədalət pozularsa, hər şey məhv olar;
- elmlə əməlin (təcrübənin) qarşılıqlı əlaqəsi və birgə inkişafı nəticəsində insanın kamilləşib «mütləq insan» səviyyəsinə qədər yüksələ bilməsi;
- hər elmin bir obyekti (mövzusu) olur və o elmdə həmin obyekt (mövzu) haqqında danışarlar;
- bütün varlıqlar Allah və insan tərəfindən yaradıldığından, hikmət də iki növ olur: biri öyrəniləsi, biri ediləsi, yəni nəzəri və əməli;
- gəlir əldə etmək üçün əsasən üç şərti yerinə yetirmək lazımdır: birinci – zülmə yol verməmək; ikinci – rüsvayçılığa yol verməmək; üçüncü – alçaqlığa yol verməmək;
- mala üç nöqteyi-nəzərdən yanaşmaq olar: birinci – gəlir; ikinci – mühafizə; üçüncü – çıxar (xərc);
- çox yatağanlığı qadağan etmək (uşaqlara – MM) lazımdır. Çox yatmaq zehni kütləşdirər, hafizəni öldürər, bədəni lırtlaşdırar, insanı süst edər;
- mümkün olmayan şeyləri arzu etmə və s. …

i.f.d., dos.
Müzəffər Məmmədov, ADİU

Bakıda enerji bazarının konsepsiyası, dizaynı və idarə edilməsinə dair seminar keçirilib

Nazirlikdən bildirilib ki, yanvarın 14-də başlanan və iki gün davam edəcək seminarın keçirilməsində məqsəd enerji bazarında islahatlar, milli elektrik enerjisi və qaz bazarlarının yaradılması üzrə Avropa İttifaqı ölkələrinin təcrübəsinin öyrənilməsindən ibarətdir.

Energetika nazirinin müavini Elnur Soltanov enerji təhlükəsizliyinin mühüm elementləri kimi ətraf mühitə təsirlərin azaldılması və istehlakçıların sərfəli qiymətə enerji resurslarına çıxışının təmin edilməsində bazar münasibətlərinin rolundan danışıb. Enerji bazarının yaradılması, tənzimləmə mexanizminin formalaşdırılması kimi məsələlərin ölkə başçısının müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əksini tapdığını qeyd edib.

Nazirliyin aparat rəhbəri Zaur Məmmədov isə energetika sektorunda yeni münasibətləri tənzimləyən qanunvericilik bazasının yaradılması istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan ilə Çexiya arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub

Azərbaycanın Çexiyadakı səfiri Fərid Şəfiyev bu ölkənin kənd təsərrüfatı naziri Miroslav Toman ilə görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xüsusən də Azərbaycandan Çexiyaya ixrac olunan kənd təsərrüfatı məhsullarının həcminin artırılması, heyvandarlıqda seleksiya, gübrə məhsulları və gübrədən zərər çəkmiş torpaq ərazilərinin təmizlənməsi, su və kanalizasiya təmizləyici qurğularının tikintisi ilə bağlı məsələlər müzakirə edilib. Həmçinin, kənd təsərrüfatında sərmayə tələb edən prioritet sahələr üzrə birgə layihələrin hazırlanması və hər iki ölkənin aqrar tədqiqatlar mərkəzləri arasında əlaqələrin qurulması istiqamətində fikir mübadiləsi aparılıb.

Görüşün nəticəsi olaraq Çexiyanın kənd təsərrüfatı sahəsində çalışan aparıcı şirkətlər və elmi-tədqiqat dairələrindən ibarət nümayəndə heyətinin cari ilin martında Azərbaycana səfərinin təşkili və səfərə hazırlıq işlərinin aparılması üzrə səfirlik ilə nazirlik arasında koordinasiya işlərinin davam etdirilməsi üzrə razılıq əldə olunub.

Keçən ilin 11 ayında 1,5 milyard dollardan çox qeyri-neft məhsulları ixrac edilib

Ötən ilin yanvar-noyabr aylarında 1 milyard 531,7 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub. Bu, 2017-ci ilin müvafiq aylarına nisbətən faktiki qiymətlərlə 10,5 faiz, real ifadədə isə 1,4 faiz çoxdur.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, hesabat aylarında 2017-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 21 faiz, təzə tərəvəz 0,3 faiz, kartof 15,5 faiz, bitki yağları 10,8 faiz, meyvə və tərəvəz konservləri 13,4 faiz, təbii üzüm şərabları və üzüm susloşu 1,8 dəfə, pambıq lifi 2,5 dəfə, polietilen 9,3 faiz, emal olunmamış alüminium 12,2 faiz, qara metallardan borular 4,7 faiz, pambıq ipliyi 31 faiz artıb. Şəkər ixracı 32,8 faiz, tütün 8,7 faiz, çay 19,4 faiz, meyvə və tərəvəz şirələri 21,5 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar 10,9 faiz, qara metallardan yarımfabrikatlar 55,5 faiz, bentonit gili isə 10,5 faiz azalıb.

2017-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə ötən ilin 11 ayında siqaret idxalı 2,6 faiz, təzə meyvə 47,9 faiz, çay 0,2 faiz, quş əti və onun əlavə məhsulları 28,9 faiz, qara metallardan borular 1,7 dəfə, minik avtomobilləri 2,4 dəfə, qara metallardan çubuqlar 44,1 faiz, mineral gübrələr 1,6 dəfə, mebellər 23,8 faiz, hesablama maşınları, blok və qurğuları 14,1 faiz, polietilen 28,3 faiz, məişət kondisionerləri 39,4 faiz, paltaryuyan maşınlar 10,4 faiz, qara metallardan künclüklər 4,1 faiz, yük avtomobilləri 1,9 dəfə, avtobuslar 39,1 faiz, sement və sement klinkerləri 42,1 faiz, məişət soyuducuları 1,8 dəfə artıb. Buğda idxalı 11,5 faiz, bitki yağları 10,7 faiz, xam şəkər və şəkər 34,3 faiz, kərə yağı, digər süd yağları və pastaları 14,4 faiz, kartof 9,1 faiz, mal əti 12,5 faiz, təzə tərəvəz 43,4 faiz, polad prokatı 9,8 faiz, rezin şinlər isə 8,6 faiz azalıb.

İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, PRİNSİPLƏRİ VƏ METODLARI

Geniş mənada ictimaiyyətlə əlaqələrin məqsədi ictimai rəyin dəyişməsidir. İctimai əlaqələrin və kommunikasiyaların elmi nəzəriyyəsində nəzərdən keçirilən fenomenin fəlsəfi mahiyyətinin xüsusi qavranılmasında elmi mühakimələrə əsaslanaraq ictimai əlaqələrin (PR) məqsədi müəyyən edilir. İctimai əlaqələrin məqsədini təşkilatla ictimaiyyət arasında münasibətlərin mücərrəd ahəngdarlaşması kimi nəzərdən keçirmək olar. İctimaiyyətlə əlaqələrin əsas məqsədi təşkilat haqqında pablisitinin (reklam vasitəsi ilə əmtəə və ya xidmətə olan tələbin stimullaşdırılmasına yönəlmiş təbliğat), müsbət imicin və ya əlverişli, xoş fikrin yaradılmasıdır. Başqa sözlə, PR sahəsində mütəxəssislərin başlıca məqsədi təşkilatla onun mühiti arasında qarşılıqlı fəaliyyət üzrə kommunikasiya kanallarının səmərəli sisteminin formalaşması olmalıdır.

Anlayışın özü, onun fəlsəfi məzmunu nöqteyi-nəzərdən hər hansı bir iş, hərəkət və fəaliyyətin məqsədi bu fəaliyyət prosesində alınan əsas nəticənin son effektidir. Məqsədə nail olunması onun müvafiq vəzifələrinin həll edilməsi və ya müəyyən zəruri funksiyaların yerinə yetirilməsi ilə şərtlənir. Buna görə də ictimaiyyətlə əlaqələrin məqsədindən danışarkən onu PR-ın vəzifələri və funksiyaları ilə vəhdətdə nəzərdən keçirmək lazımdır.

PR sahəsində görkəmli mütəxəssis L.Berneyz üç əsas funksiyanı ayırır:
1) məlumatverici;
2) inandırma (təsiredici);
3) birləşdirici (insanları).

Elmi biliyin müasir mərhələsində ictimaiyyətlə əlaqələr üzrə fəaliyyət ictimai rəyə təsir texnologiyası qismində kommunikasiyalar və ictimai əlaqələr sistemi kimi görünür və cəmiyyətin həyat fəaliyyətinin iqtisadi, sosial, siyasi və mənəvi-mədəni sferalarında kifayət qədər böyük kompleks funksiyalara malikdir. Lakin öz məzmununa görə sosiumun həyat fəaliyyətinin bütün tərəfləri üçün ictimaiyyətlə əlaqələrin (PR-in) əsas funksiyaları universaldır. Müasir tədqiqatçılar beş belə funksiyanı ayırırlar:
- analitik-proqnostik;
- təşkilati-texnoloji;
- idarəetmə;
- informasiya-kommunikasiya;
- məsləhət-metodik.

1. İctimaiyyətlə əlaqələrin analitik-proqnostik funksiyası məkanda informasiya siyasətinin strategiyasını və taktikasını strukturlara bölərək, onun qurulmasını nəzərdə tutur.

2. Təşkilati-texniki funksiya ictimaiyyətlə qarşılıqlı fəaliyyətin təşkili və audio, video texnikadan istifadə etməklə konfransların, simpoziumların, sərgilərin, dəyirmi masaların, müxtəlif səviyyəli işgüzar görüşlərin, aksiyaların, müxtəlif PR kampaniyaların (seçici, ticarət və s.) keçirilməsi üzrə kompleks yanaşmaları, üsulları, texnologiyaları və tədbirləri özündə ehtiva edir.

3. İctimaiyyətlə əlaqələrin idarəetmə funksiyası kommunikativ məkanın idarə edilməsinin əsas inteqrasiyaedicisi rolunda çıxış edir və buna görə də mərkəzi yer tutur. Bütün digər funksiyaları birləşdirərək, o, ictimaiyyətin maraqları naminə ictimai rəyin formalaşmasını, tənzimlənməsini və idarə edilməsini həyata keçirir.

4. İnformasiya-kommunikasiya funksiyası təşkilatın menecmentinin xeyli dərəcədə texnoloji funksiyasıdır və izahedici informasiya, təbliğat və reklam işinin yerinə yetirilməsi hədlərində PR-kommunikatorların ehtiyacları üçün zəruri informasiyanın yaradılması və tirajının təyin edilməsi prosesinin təmin edilməsini nəzərdə tutur.

5. Məsləhət-metodik funksiya ictimaiyyətlə PR təsirin subyektləri (istehsalçı şirkətlər, dövlət idarəetmə orqanları, ictimai-siyasi təşkilatlar və ya partiya liderləri və s.) arasında qarşılıqlı münasibətlərin və qarşılıqlı əlaqələrin təşkili, qaydaya salınması və həyata keçirilməsi üzrə məsləhət fəaliyyətinin və metodiki işin həyata keçirilməsini nəzərdə tutur.

İctimaiyyətlə əlaqələr və kommunikasiya problemlərini öyrənən mütəxəssislər PR müəssisələri qarşısında duran aşağıdakı əsas vəzifələri ayırırlar:
- ictimai rəyin, onun münasibətlərinin və gözləntilərinin öyrənilməsi;
- gözlənilən zəruri rəylərin və meyillərin formalaşması üzrə tövsiyələrin və tədbirlərin işlənib hazırlanması, tam və etibarlı informasiyaya əsaslanan ikitərəfli dialoq təmasının müəyyən edilməsi və qorunub saxlanması;
- PR fəaliyyətinin təşəbbüskarının bütün hərəkətlərinə ictimai qrupların reaksiyasının öyrənilməsi;
- mümkün meyillərin aşkar edilməsi və sosium, ictimai qruplar, liderlər, fərdlər üçün onların nəticələrinin əvvəlcədən söylənilməsi;
- münaqişəli və stress vəziyyətlərin qarşısının alınması, PR kommunikasiyalarının iştirakçısı olan tərəflərin anlaşmazlığının aradan qaldırılması;
- problemli və böhran şəraitində idarəetmə və tənzimləmə;
- qarşılıqlı hörmət və sosial məsuliyyət əhvali-ruhiyyəsinin formalaşmasına kömək göstərilməsi;
- şəxsi və ictimai maraqların ahəngdarlaşması;
- fərdin davranış xarakteristikalarını nəzərə almaqla məsləhət xidmətlərinin göstərilməsi;
- cəmiyyətdə mövcud olan əlverişli, xoş, sabit rəylərin, miflərin və stereotiplərin formalaşması üzrə fəaliyyətin həyata keçirilməsi;
- istehlakçılarla, məhsul göndərənlərlə və personalla xeyirxah münasibətlərin formalaşmasına yardım göstərilməsi;
- istehsal münasibətlərinin yaxşılaşması;
- mütəxəssislərin cəlb olunmasında iştirak, kadrların axıcılığının azaldılmasına səbəb olan kollektivdə xoş münasibətli əhval-ruhiyyənin və rahat əmək şəraitinin yaradılması;
- əmtəə və xidmətlərin təbliğatı və reklam edilməsi, marketinq tədqiqatlarında və müəssisənin mənfəətinin yüksəldilməsində iştirak;
- yüksək səviyyəli peşəkarların xüsusi müsbət imicinin formalaşması üzərində iş.

(davamı var)

BDU-nun dosenti
F.M.Qarayev

Dövlət Turizm Agentliyi turizm fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və şirkətlərə xəbərdarlıq edib

Dövlət Turizm Agentliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi təhlükəli hidrometeoroloji hadisə ilə bağlı xəbərdarlığını əsas götürərək respublika ərazisində yanvarın 17-18-də hava şəraitinin kəskin pisləşəcəyi ilə əlaqədar turizm fəaliyyəti ilə məşğul olan bütün fiziki şəxslər və şirkətlərə müraciət edib.

Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, müraciətdə açıq sahələrdə turistlərə xidmət göstərən turizm agentliklərinə, hotellərə, bələdçilərə, dağ, eko, macəra və digər ekstremal turizm növləri ilə məşğul olan şəxslərə və şirkətlərə əməkdaşlarının və turistlərin təhlükəsizliyini nəzərə alaraq fəaliyyətlərini qeyd olunan tarixlərdə məhdudlaşdırmağı, zəruri hallarda tamamilə dayandırmağı tövsiyə edir.

Həmçinin, şiddətli külək, temperaturun anomal gedişi və yolların buz bağlama ehtimalı nəzərə alınaraq ölkədaxili turistik səfərlərin təxirə salınması tövsiyə olunur.

Azərbaycan peyk xidmətlərinin ixracını artırıb

"Azərkosmos" ASC-nin peyk xidmətlərinin ixracının həcmi 2018-ci ilin noyabrında 1,6 milyon dollar təşkil edib.

Trend-in məlumatına görə, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxracat icmalı"nda deyilir.

Mərkəzin məlumatına əsasən, ASC-nin xidmətlərinin ixracından əldə etdiyi gəlir operatorun gəlirlərinin ümumi həcminin 88 faizini təşkil edib.

2018-ci ilin yanvar-noyabr aylarında peyk və telekommunikasiya xidmətlərinin ixracından Açıq Səhmdar Cəmiyyətinin gəlirlərinin ümumi həcmi 24 milyon dollar təşkil edib.

ASC-nin xidmətləri 24 ölkəyə göstərilib. Operatorun xidmətlərinin ixracının əsas payı Fransa (10,9 milyon dollar), Malayziya (8,4 milyon dollar), BƏƏ (1,4 milyon dollar), Almaniya (825 min dollar) və Gürcüstan (531 min dollar) kimi ölkələrə düşüb.

Alimlər: Qlobal ekoloji fəlakət yaxınlaşır

ABŞ-ın Kaliforniya Universitetinin alimləri müəyyən ediblər ki, Antarktidada buzlar qırx il əvvəl olduğundan altı dəfə çox əriyir. Ərimə prosesinin güclənməsi yaxın on ildə dənizlərin səviyyəsinin qalxmasına səbəb ola bilər.

AZƏRTAC "Proceedings of the National Academy of Sciences" jurnalında dərc olunmuş məqaləyə istinadla xəbər verir ki, 1979-1989-cu illərdə Antarktidada hər il 40 milyard ton buz əriyib. 2009-cu ildən isə bu rəqəm 252 milyard tona çatıb. Dənizlərdə suyun səviyyəsinin bir millimetr qalxması üçün 360 milyard ton buzun əriməsi lazımdır. Alimlər bildirirlər ki, hətta daha dayanıqlı ərazi sayılan Cənub qütbü də qlobal istiləşmənin təsirinə məruz qalıb. Tədqiqatçıları narahat edən odur ki, karbon qazının emissiyasının artması qlobal fəlakəti daha da yaxınlaşdırır. Onlar əlavə ediblər ki, 2100-cü ildə Yer kürəsində qlobal quraqlıq, isti, güclü tufanlarla yanaşı, dəniz səviyyəsinin 1 metr qalxması da gözlənilir. Bu, insanların yaşadığı adaların, o cümlədən Maldiv və Seyşelin su altında qalmasına, şirin su mənbələrinin yox olmasına gətirib çıxaracaq. XX əsrin əvvəlindən etibarən dənizlərin səviyyəsi 20 santimetr artıb.

Məqalədə qeyd olunur ki, Antarktidada bütün buzlaqların əriməsi dəniz suyunun 57,2 metr qalxmasına səbəb ola bilər.

Bu prosesin güclənməsi isə nəhəng buz dağlarının okeana batması nəticəsində onların isti su ilə əhatə olunmasıdır. Güclü qar yağması bunun qarşısını almalıdır, lakin bu amil son illər buz təbəqəsinin əriməsinə əngəl ola bilmir. 1979-cu ildən bəri Payn Aylend buz dağı trilyon tondan çox buz itirib, Tueytsa buzlağında isə ərimə 634 milyard ton olub. Ən çox buz təbəqəsinin yerləşdiyi Şərqi Antarktidada da iqlim dəyişməsi hiss olunur.

Ekspertlər 2018-ci ilin ən yaxşı avtomobillərini elan ediblər

"CarsWeek.ru" saytının ekspertləri ötən ilin 5 ən yaxşı avtomobilini seçiblər.

Yeddinci nəsil "Toyota Camry" ən etibarlı avtomobil adlandırılıb. Ən təhlükəsiz avtomobil "Volvo XC90" krossoveri hesab edilib. Avtomobil fövqəladə hallarda devrilmək ehtimalını azaldan "ağıllı" asma ilə təchiz edilib.

Minibar, massaj, isitmə və havalandırma sisteminə malik yeni nəsil "Mercedes Maybach S600" ən rahat avtomobil sayılıb.

Saatda 420 kilometr məsafə qət edən "Bugatti Chiron" ən sürətli maşın elan edilib. Ötən ilin ən yaxşı elektrik avtomobili isə "Tesla Model S" adlandırılıb.

"WhatsApp" bəzi smartfonlarda fəaliyyətini dayandıracaq

"WhatsApp" bu ilin əvvəlindən bəzi məşhur əməliyyat şəbəkələrinin dəstəyindən imtina edəcək. Trend-in məlumatına görə, bu barədə şirkətin saytında bildirib.

Qeyd olunur ki, dəyişikliklər "Nokia Series 40" əməliyyat sistemli telefonlara aid olacaq. 2012-ci ildə "Nokia S40"-ın müxtəlif seriyaları ilə dünyada bu mobil qurğuların miqdarı 1,5 milyarddan çox olub.

Bundan əlavə, 2020-ci ilin 1 fevralından bu dəyişiklik "Android 2.3.7" versiyalı smartfonlara da aid olacaq. "WhatsApp" həmin versiyalı telefonlarda da fəaliyyət göstərməyəcək.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500